YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
12 mart 2025-ci il, çərşənbə
№ 045 (6873)
Qiymәti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini təmin edir



## Biz tərəfdaşlarımızın xahişlərinə hər zaman böyük diqqətlə yanaşmışıq

Bax səh. 2

# Gəncə III MDB Oyunlarına hazırlaşır

Bax səh. 4

## İcma: Ermənistanı sülh prosesinə maneə törədən destruktiv hərəkətlərdən çəkinməyə çağırırıq

İcmanın bəyanatında bildirilir ki, Ermənistanda Azərbaycana qarşı təxribatlar səngimək bilmir. “İndi də özünü “parlament” kimi təqdim edən bir ovuc şəxsin xarici ölkələrin birinin parlamentinə anti-Azərbaycan məzmunlu müraciəti, Azərbaycana qarşı iş aparan hansısa “komissiya”nın iclası barədə məlumatlar yayılıb. Ermənistanın onun suverenliyinə qarşı heç bir addım atmayan, yalnız dinc yolla öz dədə-baba yurdlarına qayıtmaq istəyən Qərbi Azərbaycan İcması ilə dialoqdan imtina edib öz ərazisində Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təhdid edən qrupların fəaliyyətinə şərait yaratması qəbulolunmazdır. Bütün bunlar bir daha Ermənistanın dayanıqlı sülhdə maraqlı olmadığını, əksinə silahlanma siyasətini davam etdirərək regionda gərginlik yaratmağa can atdığını nümayiş etdirir. Qərbi Azərbaycan İcması Ermənistanı sülh prosesinə maneə törədən belə destruktiv hərəkətlərdən çəkinməyə çağırır”.



## Sabitliyimizin təminatçıları...

Bax səh. 8

## Qeyri-neft ixracı artmaqda davam edir

2025-ci ilin yanvar-fevral aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 485 milyon dollar təşkil edib. Qeyd edilən dövrdə yeyinti məhsullarının ixracı 12,3 faiz artaraq 153,9 milyon dollara bərabər olub. Qara metallar və ondan hazırlanan məmulatlar 66,9 faiz, şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 47 faiz, alkoqollu və alkoqolsuz içkilər 39,2 faiz, kimya sənayesi...

Bax səh. 3

## Üzvlük haqqı ödənməsə...

Ermənistan artıq bir neçə ildir ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) qeyri-rəsmi də olsa çıxdığını bəyan edib. Daha doğrusu, qurumda fəaliyyətini dondurduğunu bəyan edən İrəvan üzvlük haqqını belə ödəmir. Bu ölkə təşkilat çərçivəsində keçirilən fərqli strukturların görüşlərinə qatılmır, keçirilən hərbi təlimlərdə iştirak etmir. 2023-cü ilin yanvar ayında öz ərazisində KTMT təlimlərinin keçirilməsinə etiraz edən rəsmi İrəvan hətta həmin ilin martında öz nümayəndəsini KTMT rəhbərinin...

Bax səh. 6

## Dünya Bankı Xəzərdə ekoloji layihəni maliyyələşdirəcək

Dünya Bankı (DB) yaxın vaxtlarda “Xəzər dənizinin təmizlənməsi: çirklənmənin idarə edilməsi və biomüxtəlifliyin qorunması potensialının yaradılması” layihəsinin maliyyələşdirilməsini təsdiq edəcək. Bankın məlumatına görə, layihə Azərbaycan, Qazaxıstan və Türkmənistanın dəniz sularının ekoloji tarazlığının qorunmasına...

Bax səh. 4

## Dost və qardaş ölkə...

Azərbaycan Mərkəzi Asiya ölkələri, o cümlədən regionun Türk dövlətləri ilə münasibətlərə mühüm əhəmiyyət verir. Bu amil ölkələrarası əlaqələrin inkişafına, yeni əməkdaşlıq imkanlarının yaranmasına gətirib çıxarıb. Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu Türk dövlətlərindən biri də Qazaxıstandır. Hər iki ölkənin dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin artan qarşılıqlı səfərləri münasibətlərin dinamikasını daha da gücləndirməkdədir.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun martın 11-də Qazaxıstana rəsmi səfəri də bu baxımdan əlaqələrin inkişafında mühüm hadisə kimi qiymətləndirilə bilər. Səfər çərçivəsində Ceyhun Bayramov Qazaxıstan Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazirlər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib. Geniştərkibli görüş zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətləri, ikitərəfli və çoxtərəfli əməkdaşlığın perspektivləri, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Tərəflər Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluqlarını bildirib, ölkələrimiz arasında ali və yüksəksəviyyəli təmas və səfərlərin əməkdaşlığın inkişafına xidmət etdiyi vurğulanıb. Ötən il Azərbaycan Prezidentinin Qazaxıstana iki, Qazaxıstan Prezidentinin isə ölkəmizə üç səfərinin dövlətlərimiz arasında münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğu bildirilib.

İki ölkə arasında müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, nəqliyyat, kommunikasiyalar...

Bax səh. 3

# Ermənistanın mina terroru ifşa olunur

Bax səh. 5

## Yelisey Sarayı beynəlxalq qınaq qarşısında



Bax səh. 7



## Yaxın Şərqdə yeni geosiyasi mənzərə formalaşır

Bax səh. 6

# Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova ölkəmizə səfər edib







## Prezident İlham Əliyev: Biz ikitərəfli münasibətlərimizin inkişafı üçün fəal iş aparırıq

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkovanın martın 11-də Bakıda rəsmi qarşılanma mərasimi olub. Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Şimali Makedoniya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkovanı qarşılayıb. Fəxri qarovul dəstəsinin rəisi Şimali Makedoniya Prezidentinə raport verib. Şimali Makedoniya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin və Qordana Silyanovska-Davkovanın qarşısından keçib. Dövlət başçıları rəsmi foto çəkdiriblər.

Azərbaycan Prezidenti İlham Əliyevin Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova ilə təkbətək görüşü olub.

Sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, Şimali Makedoniya Prezidenti xanım Davkovanın bu, Azərbaycana ikinci səfəridir. Dövlətimizin başçısı bildirib ki, Qordana Silyanovska-Davkova COP29 konfransında da fəal iştirak edib və konfransın uğurla keçirilməsinə öz töhfəsini verib: "Noyabr ayında görüş əsnasında mən Sizi Azərbaycana rəsmi səfərə dəvət etmişəm və şadam ki, mənim dəvətimi qəbul edib bu gün rəsmi səfərdəsiniz. Biz ikitərəfli münasibətlərimizin inkişafı üçün fəal iş aparırıq. Şadam ki, ölkələrimiz arasında siyasi dialoq dinamik xarakter alır. Bizim xanım Prezidentlə ikinci görüşümüz qısa müddət ərzində bunun əyani sübutudur. Siyasi əlaqələrimizin inkişafı üçün əlavə tədbirlər görülməlidir, müvafiq dövlət qurumları təbii olaraq sıx təmasda olmalıdırlar. Eyni zamanda, iqtisadi sahədə, sərmayə qoyuluşu sahəsində imkanlar araşdırılmalıdır. Əfsuslar olsun ki, bu günə qədər ticari-iqtisadi sahədə o qədər böyük nəticələr əldə edilməyib. Ancaq ümid edirəm ki, Sizin rəsmi səfərinizdən və nümayəndə heyətlərinin təmaslarından sonra biz bu boşluğu da dolduracağıq".

Prezident İlham Əliyev qeyd edib ki, son ayların müsbət əlaməti də ondan ibarətdir ki, iki ölkə energetika sahəsində əməkdaşlığa başlamışdır. Azərbaycan qazı artıq Şimali Makedoniyanın bazarına çatdırılmışdır və bu, keçən ilin sonlarında baş verdi, bu il artıq müntəzəm olaraq Azərbaycan sizin bazarınızı təbii qazla təmin edəcəkdir. Gələcəkdə biz lazım olan həcmdə qaz təchizatını artıra bilərik. Çünki biz bu gün yeni qaz yataqlarının istismara verilməsi istiqamətində fəal iş aparırıq. Bildirməliyəm ki, hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bizim müştərilərimizin coğrafi yerləşməsi də Avrasiya məkanını əhatə edir. On iki ölkədən 10 ölkə Avropa ölkəsidir. Keçən il Azərbaycan xarici bazarları 25 milyard kubmetr qaz ilə təchiz etmişdir. Təbii ki, bizim istehsalımız bundan daha çoxdur. Çünki biz yerli tələbatı da ödəyirik. Ancaq əhatə dairəsi, qaz təchizatımızın coğrafiyasının genişləndirilməsi də gündəlikdə duran məsələdir. Avropa Azərbaycan qazına ehtiyac duyur. Təxminən üç il bundan əvvəl Bakıda imzalanmış Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq Bəyannaməsi bunun əyani təzahürüdür. Bu gün Azərbaycan qazı bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini təmin edir və Avropadakı tərəfdaşlarımızın xahişlərinə biz hər zaman böyük diqqətlə yanaşmışıq. Yəni, energetika sahəsində ikitərəfli formatda əməkdaşlıq bizim üçün çox önəmlidir və mən ümid edirəm ki, bu praktiki əməkdaşlıq digər sahələrdə də əməkdaşlığa gətirib çıxaracaq.

Mən xatırlayıram ki, keçən səfəriniz çərçivəsində Siz Azərbaycanın mədəni həyatı ilə də tanış olmusunuz və bilirəm, sabahkı proqramınızda da buna oxşar tədbirlər var. Biz bunu çox müsbət qarşılayırıq, bunu alqışlayırıq. Xalqlarımızın humanitar sahədə əməkdaşlığına da böyük ehtiyac var. Şadam ki, Siz, eyni zamanda, XII Qlobal Bakı Forumunda iştirak edəcəksiniz. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunan bu Forum dünya miqyasında layiqli yerini tuta bilib. Əlbəttə ki, Sizin dəyərli fikirləriniz, tövsiyələriniz hamı üçün maraqlı olacaq. Siz bizim tələbələrimizlə də görüşəcəksiniz. Buna görə də Sizə təşəkkürümü bildirirəm.

Sizin siyasi və dövlət xadimi kimi çox böyük təcrübəniz var. Siz beynəlxalq təşkilatlarda yüksək vəzifələrdə çalışmısınız, eyni zamanda, ölkənizdə müxtəlif mərhələlərdən keçərək ən yüksək vəzifəyə layiq görülmüsünüz. Ona görə Sizin dəyərli fikirləriniz hamımız üçün çox maraqlı ola bilər. Xanım Prezident, Sizi bir daha səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz. Əminəm ki, səfəriniz uğurlu olacaqdır.

Sonra Şimali Makedoniyanın Prezidenti bəyanatla çıxış edərək Prezident İlham Əliyevə minnətdarlığını bildirib. "Mədəniyyət diplomatiyasının gücünə dərindən inanan bir şəxs kimi cənab Prezidentə söylədim ki, mən həqiqətən buraya yenidən gəlməyimi arzulayırdım. Bununla belə, mən məlumatım olmadığı bəzi məsələləri də artıq müzakirə etdim. Ölkəniz müsəlman Şərqində ilk cümhuriyyət qurmuşdur, eləcə də ilk opera, ilk filarmoniya məhz burada yaradılmışdır. Bu ölkə öz zəngin mədəniyyəti ilə seçilir. Ötən dəfə söylədiyim kimi, ilk dəfə ziyarət edə bilmədiyim muzeylərə bu dəfə gedəcəyəm. Bu fürsətə görə Sizə təşəkkürümü bildirirəm.

Prezident artıq söylədi ki, əgər belə qısa müddət ərzində bir insanla yenidən görüşürsənsə, deməli, aydındır ki, bunun yaxşı əsasları var. Fikrimcə, bu bir faktdır ki, Azərbaycan beynəlxalq münasibətlərdə çox fəaldır. Sonuncu görüş zamanı burada iqlim konfransı təşkil edilmişdi. İndi isə növbəti dəfə tədbir keçiriləcək və orada dünyanı narahat edən əsas çağırışlar müzakirə olunacaq. Bu da yaxşı fürsətdir, çünki bu il biz ölkələrimiz arasında diplomatik münasibətlərimizin otuzuncu ildönümünü qeyd edirik. Düşünürəm ki, həmin tarixin bu görüşlə üst-üstə düşməsi yaxşı haldır.

Cənab Prezident Azərbaycanla strateji tərəfdaşlıqda Avropa İttifaqının marağı haqqında artıq danışdı. Azərbaycan nəinki beynəlxalq geosiyasi səhnədə mühüm yerləşməsi ilə seçilir, o cümlədən bizim kimi kiçik ölkələrin ehtiyac duyduğu təbii qaz, bərpaolunan enerji baxımından çox maraqlı tərəfdaşa çevrilir. Mən cənab Prezidentə söylədiyim məsələləri bir daha vurğulayıram ki, biz irəliyə doğru addımın atılmasını gözləyirik və əməkdaşlığa dair bəyannaməyə və ya razılaşmaya imza atacağıq. Bu, o demək deyil ki, biz yalnız qaz təchizatında Azərbaycandan yardım alacağıq, o cümlədən iqtisadi əməkdaşlıq üçün də imkanlar yaranacaq.

Mən qarşımda xarici işlər nazirini görürəm, biz dərhal diplomatik və xidməti pasport sahibləri üçün viza tələbinin tətbiqi kimi təəccüblü bir vəziyyətə son qoyacağıq. Zənnimcə, bu, nə Şimali Makedoniyanı, nə də Azərbaycanı qane edən vəziyyət deyil və bu addımın atılması iki xalq arasında yaxınlaşmaya xidmət edəcəkdir. Ümid edirəm ki, biz Azərbaycanın mədəniyyətini də tanımağa davam edəcəyik. Bundan əlavə, elm sahəsində də universitetlərimiz arasında əməkdaşlığın qurulmasına nail ola bilərik.

Azərbaycan hətta təyyarədən belə çox gözəl görünür, ölkəniz ilə əyani tanışlıqda isə o, insanı valeh edir. Bu səbəbdən turizm sahəsi də əməkdaşlıq edə biləcəyimiz sahələrdəndir.

Artıq qeyd etdiyimiz kimi, bugünədək iqtisadiyyat sahəsində əhəmiyyətli addımlar atılmamışdır. Coğrafi mövqeyimizə görə biz Balkanlarda, Avropanın mərkəzində, bir sıra marşrutların kəsişməsində yerləşirik. Bu, Avropaya və dünyaya açıq olan hər bir ölkə üçün olduqca vacibdir.

Sonuncu dəfə ölkənizdə olarkən bu fikri söyləmişdim və bu gün də təkrar bəyan etmək istəyirəm ki, biz bir-birimizdən bir çox şey öyrənə bilərik və bu səfər dərin dostluğun təməli olacaqdır. Mən təkcə Dövlət Neft Şirkəti ilə müqaviləni nəzərdə tutmuram. Hesab edirəm ki, gələcəkdə əldə olunan bütün razılaşmalar bizi daha da yaxınlaşdıracaq.

Cənab Prezidentə söylədiyim sonuncu fikir ondan ibarət idi ki, XXI əsrdə yenidən dünya nizamı ilə bağlı fərziyyələrin irəli sürülməsi insanı sarsıdır. Ukrayna da daxil olmaqla, bu geniş region dünyada cərəyan edən hadisələrin özəyini təşkil edir və müxtəlif tərəflər bu regionda təsir gücünə malik olmaq istəyir. Zənnimcə, Avropa yenidən qapılarını açır və sizin nailiyyətləriniz sayəsində biz gələcək əməkdaşlığımızı davam etdirə bilərik.

Səmimi qonaqpərvərliyə və fikir mübadiləsinin aparılması fürsətinə görə Sizə təşəkkür edirəm. Ümid edirəm ki, qarşıdakı illərdə biz daha güclü əməkdaşlığa nail ola biləcəyik. Bu məqamda mən Strateji Əməkdaşlığa dair Sazişi qeyd etmək istəyirəm. Belə bir Saziş region ölkələri ilə imzalanıb və mən müvafiq Sazişin Azərbaycanla da imzalanması üçün heç bir maneə görmürəm.

Azərbaycan Prezidenti İlham Əliyevin Şimali Makedoniya Prezidenti ilə lanç əsnasında geniş tərkibdə görüşü olub.

# Şimali Makedoniya Prezidenti Ulu Öndərin xatirəsini anıb



Ölkəmizdə rəsmi səfərdə olan Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova martın 11-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.



Şimali Makedoniya Prezidenti səfər çərçivəsində Bakıda Zəfər parkını da ziyarət edərək Zəfər abidəsinin önünə əklil qoyub. Ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib. Bildirilib ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Şimali Makedoniya Respublikasının Prezidenti ADA Universitetində tələbələrlə də görüşüb. O, Azərbaycan və Şimali Makedoniya arasında geniş əməkdaşlıq potensialının olduğunu qeyd edərək, xüsusilə təhsil, iqtisadiyyat və mədəni sahələrdə əlaqələrin inkişafına diqqət çəkib.Görüş interaktiv şəkildə davam edib və Prezident Qordana Silyanovska-Davkova tələbələrin suallarını cavablandırıb.

# Qərbi Azərbaycan İcması bəyanat yayıb

## Ermənistan və havadarlarının cinayətlərinə haqq qazandıran cəhdləri qınayırıq

Qərbi Azərbaycan İcmasının bəyanatında qeyd edilir ki, "müharibə cinayətləri və insanlıq əleyhinə cinayət törətməkdə şübhəli bilinən bir qrup şəxs hazırda Azərbaycanda ədalət məhkəməsi qarşısına çıxarılıblar.

Ermənistan dövlətinin Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar müharibə zamanı törədilmiş bu cinayətlər nəticəsində on minlərlə azərbaycanlı qətlə yetirilib, yüz minlərlə soydaşımız etnik təmizləməyə məruz qalıb, minlərlə azərbaycanlıya işgəncə verilib, məcburi itkin düşüb, ictimai və şəxsi mülkiyyətə böyük məbləğdə zərər vurulub. İnsan hüquqları və humanitar hüququn bu miqyasda pozulması və törədilən misilsiz ədalətsizlik şübhəsiz ki, sülh və barışığın əldə edilməsinə ən böyük maneələrdən biri olub. Bu mənada azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə, eləcə də Xocalı, Qaradağlı, Ağdaban və digər yerlərdə törədilmiş kütləvi qətliamlara görə məsuliyyət daşıyanların bəzilərinin ədalət məhkəməsinin qarşısına çıxarılması haqq-ədalətin öz yerini tutması və davamlı sülhün əldə olunmasına böyük töhfədir.

Təəssüflə qeyd etmək lazımdır ki, Ermənistan Respublikası hökuməti və ölkənin aparıcı siyasi qüvvələri bu haqq işinə dəstək vermək və məhkəmə prosesinə yardım etmək əvəzinə, faktiki olaraq törədilmiş cinayətlərə haqq qazandıran və cəzasızlığı təşviq edən cəhdlər edirlər. Bu məsələdə bir sıra Avropa dövlətlərinin parlamentləri, beynəlxalq təşkilatlarda işləyən qeyri-dürüst funksionerlər və digər siyasi dairələr də fəallıq göstərirlər.

Ermənistan tərəfindən törədilən etnik təmizləmə, qətliamlar, mədəni irsin dağıdılması, öz evlərinə qayıdışa maneə törədilməsi kimi insanlıq əleyhinə cinayətlərdən əziyyət çəkən bir icma olaraq, biz Ermənistanın və onun havadarlarının bu cinayətlərə haqq qazandıran, ədalət məhkəməsinin müstəqilliyinə xələl gətirən, cəzasızlığı təşviq edən cəhdlərini sərt şəkildə qınayır və onlara son verilməsini tələb edirik".

# Dost və qardaş ölkə...

## Azərbaycan - Qazaxıstan münasibətləri uğurla inkişaf edir



Azərbaycan Mərkəzi Asiya ölkələri, o cümlədən regionun Türk dövlətləri ilə münasibətlərə mühüm əhəmiyyət verir. Bu amil ölkələrarası əlaqələrin inkişafına, yeni əməkdaşlıq imkanlarının yaranmasına gətirib çıxarıb. Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu Türk dövlətlərindən biri də Qazaxıstandır. Hər iki ölkənin dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin artan qarşılıqlı səfərləri münasibətlərin dinamikasını daha da gücləndirməkdədir.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun martın 11-də Qazaxıstana rəsmi səfəri də bu baxımdan əlaqələrin inkişafında mühüm hadisə kimi qiymətləndirilə bilər. Səfər çərçivəsində Ceyhun Bayramov Qazaxıstan Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazirlər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib. Geniştərkibli görüş zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətləri, ikitərəfli və çoxtərəfli əməkdaşlığın perspektivləri, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Tərəflər Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluqlarını bildirib, ölkələrimiz arasında ali və yüksəksəviyyəli təmas və səfərlərin əməkdaşlığın inkişafına xidmət etdiyi vurğulanıb. Ötən il Azərbaycan Prezidentinin Qazaxıstana iki, Qazaxıstan Prezidentinin isə ölkəmizə üç səfərinin dövlətlərimiz arasında münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğu bildirilib.

İki ölkə arasında müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, nəqliyyat, kommunikasiyalar, humanitar və s. istiqamətlər üzrə əməkdaşlıq perspektivləri müzakirə olunub. Nazir Ceyhun Bayramov qardaş ölkələr, o cümlədən Mərkəzi Asiya ölkələri və Qazaxıstanla əlaqələrin bütün sahələrdə gücləndirilməsinin xarici siyasətimizin əsas prioritetlərindən olduğunu qeyd edib. Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Əməkdaşlıq və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti qeyd olunub, habelə qarşılıqlı maraq doğura biləcək yeni tərəfdaşlıq istiqamətlərinin müəyyən edilməsi barədə fikir mübadiləsi aparılıb. Xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində müxtəlif sahələr üzrə təşəbbüslərin irəli sürülməsinin, ali və yüksək səviyyədə toplantıların keçirilməsinin, əhəmiyyətli qərarların qəbulunun, habelə təşkilatın beynəlxalq arenada nüfuzunun gücləndirilməsi və institusionallaşması istiqamətində əməkdaşlığımızın təqdirəlayiq olduğu bildirilib.

Beynəlxalq platformalardan bəhs edərkən, ötən ilin noyabrında Azərbaycanın uğurla ev sahibliyi etdiyi COP29-da Qazaxıstanın ən yüksək səviyyədə təmsil olunmasının, tədbirin işində yaxından iştirakının və ölkəmiz tərəfindən irəli sürülmüş təşəbbüslərə qoşulmasının yüksək qiymətləndirildiyi vurğulanıb. Nəqliyyat-kommunikasiya istiqamətlərinə gəlincə, Orta Dəhlizin ayrılmaz komponenti olan Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu çərçivəsində əməkdaşlığın genişləndirilməsinin, habelə "Rəqəmsal İpək Yolu" layihəsinin əsas hissəsi olan Bakı ilə Aktau arasında inşası planlaşdırılan "Xəzər dənizinin dibi ilə fiber-optik kabel magistralı" layihəsinin Azərbaycan-Qazaxıstan əməkdaşlığının daha dinamik xarakter almasına xidmət edəcəyinə əminlik ifadə olunub.

C.Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, minatəmizləmə fəaliyyəti, habelə Azərbaycan-Ermənistan normallaşma prosesinin hazırkı durumu barədə məlumatlandırıb. İşğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşa edilməsi minnətdarlıq hissi ilə vurğulanıb.

Qazaxıstan tərəfinin sülh prosesinə göstərdiyi davamlı dəstək yüksək qiymətləndirilib, Azərbaycan ilə Ermənistan arasında sülh sazişi layihəsi üzrə ikitərəfli danışıqlar prosesi çərçivəsində qazanılan nailiyyətə baxmayaraq, Ermənistan konstitusiyası və bir sıra qanunvericilik aktlarında ölkəmiz əleyhinə



ərazi iddialarının davam etdirilməsinin, Minsk qrupunun saxlanması ilə bağlı Ermənistan tərəfinin mövqeyinin fundamental problem olaraq qaldığı diqqətə çatdırılıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Görüşün sonunda nazirlər Xarici İşlər nazirlikləri arasında 2025-2026-cı illər üzrə fəaliyyət planını imzalayıblar.

Daha sonra nazirlər görüşün yekunlarına dair mətbuat konfransında bəyanatlarla çıxış ediblər.

Qeyd edək ki, C.Bayramov səfər çərçivəsində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibi Kayrat Sarıbay və AQEM-ə üzv dövlətlərin səfirləri ilə də görüş keçirib. Görüşdə Azərbaycanın AQEM-ə sədrliyindən irəli gələn məsələlər və sədrliyin prioritetləri, AQEM çərçivəsində müzakirə olunub. C.Bayramov ölkəmizin AQEM sədrliyinin əsas prioritetlərindən bəhs edib, bu istiqamətdə xüsusilə AQEM-ə üzv ölkələrin yerləşdikləri mühüm coğrafi mövqeni nəzərə alaraq, nəqliyyat və kommunikasiyalar sahələri üzrə əməkdaşlığın inkişaf etdirilməsinin geniş perspektivlərinin olduğunu bildirib. Sədrliyimizin, eyni zamanda, AQEM-in institusionallaşması, fəaliyyət imkanlarının genişləndirilməsinə köklləndiyini deyən nazir bu xüsusda AQEM-in yeni qərargahının Müşavirənin işinin daha da təkmilləşdirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Söhbət zamanı, regionumuzda və dünyamızda baş verən proseslərin AQEM-in bölgədə inklüziv platforma kimi rolu və çəkisini artırdığı diqqətə çatdırılıb, bu istiqamətdə sədrliyimiz müddətində göstərilən təşəbbüs və səylərin bütün üzv dövlətlər tərəfindən dəstəklənməsinin, AQEM çərçivəsində fəal iştirakçılığın vacibliyi vurğulanıb.

Azərbaycanın xarici işlər naziri Prezident Kasım-Jomart Tokayev tərəfindən qəbul edilib. Görüşdə nazir Ceyhun Bayramov ötən ilin dekabrında "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar göstərilən operativ və hərtərəfli dəstəyə görə Qazaxıstanın dövlət başçısına minnətdarlığını ifadə edib. Ölkələrimiz arasında siyasi-iqtisadi, ticarət-investisiya, sənaye-texnologiya, nəqliyyat-kommunikasiya, mədəniyyət-humanitar, elm-təhsil və digər sahələr üzrə zəngin əməkdaşlığın yeni hərəkətverici elementlərlə daha da intensivlik qazanmasının əhəmiyyəti vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı dəstək, həmrəylik və birgə təşəbbüslərə əsaslanan əməkdaşlığın təqdirəlayiq olduğu bildirilib. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, eləcə də postmünaqişə dövründə regional vəziyyət və son inkişaflar ətrafında fikir mübadiləsi aparılıb.

***Nardar BAYRAMLI***

# Qeyri-neft ixracı artmaqda davam edir

## İlk 2 ayda 485 milyon dollar həcmində məhsul ixrac olunub

2025-ci ilin yanvar-fevral aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 485 milyon dollar təşkil edib. Qeyd edilən dövrdə yeyinti məhsullarının ixracı 12,3 faiz artaraq 153,9 milyon dollara bərabər olub. Qara metallar və ondan hazırlanan məmulatlar 66,9 faiz, şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 47 faiz, alkoqollu və alkoqolsuz içkilər 39,2 faiz, kimya sənayesi məhsulları 30 faiz, çay 21,3 faiz, alüminium və ondan hazırlanan məmulatlar 2,8 faiz artıb. Aqrar məhsulların ixracı 9,5 faiz artaraq 119,7 milyon dollar, aqrar-sənaye məhsullarının ixracı isə 17,7 faiz artaraq 43 milyon dollara bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 11,6 faiz artaraq 162,8 milyon dollar təşkil edib.

## Dövlətin dəstəyi, vergi-gömrük güzəştləri...

Azərbaycanın qeyri-neft ixracının böyüməsində yürüdülən təşviqedici siyasət tədbirləri, iqtisadiyyatın şaxələndirilməsi nəticəsində qeyri-neft sektorunda istehsalın artması mühüm rol oyanmaqdadır. Son illərdə dövlət tərəfindən qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, rəqabət qabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması istiqamətində ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilib. İxracla məşğul olan biznes subyektlərinə müxtəlif güzəştlər, o cümlədən vergi-gömrük güzəştləri tətbiq olunub, ixrac təşviqi sənədi üzrə maliyyə yardımı göstərilib, habelə kənd təsərrüfatı və emalı məhsullarına ixracla bağlı geri ödəmə dəstəkləri verilib. Bundan başqa, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclər dövlət büdcəsi hesabına ödənilib. Qeyd edilən dəstəkləyici mexanizmlərin hazırda daha da genişləndirilməsi istiqamətində addımlar atılır.

Bu dəstəkləyici və stimullaşdırıcı tədbirlər sayəsində son 5 ildə qeyri-neft ixracı ümumilikdə 50 faizi ötərək dəyər baxımından 3 milyard dollardan yüksək olub. Xarici iqtisadi fəaliyyətdə əmtəə nomeklaturası üzrə ixracın çeşidi də hər il artıb və bu, davamlı xarakter daşıyır. Hazırda Azərbaycan 100-ə yaxın ölkəyə 35 adda qeyri-neft malları ixrac edir.



## "Azexport" - qeyri-neft ixracının elektron platforması...

Azərbaycanın ixrac siyasətinin müasir platformalarından biri kimi "Azexport" portalı mühüm yer tutur. 9 ilə yaxındır ki, ölkəmizdə istehsal olunan malların vahid elektron məlumat




bazası rolunu oynayan portal Azərbaycanda istehsal olunan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlarda təşviqinə dəstək verir. "Azexport", həmçinin ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması üçün ixracatçı sahibkarlara nəqliyyat, logistika, ödəniş və sertifikatlaşdırma sahəsində dəstək göstərir. "Azexport" artıq ixrac sektorunda tərəf kimi xarici ölkələrin biznes nümayəndələri ilə elektron ticarətin intensiv aparılmasını təmin edən çevik bir struktura çevrilib.

"Azexport" portalının qlobal rəqəmsal ticarət platformalarına inteqrasiyası ənənəvi bazarlardan fərqli yeni bazarlara çıxış imkanlarına da əlverişli mühiti təmin edib. Nəticədə portal "Made in Azerbaijan" məhsullarının ixrac istiqamətlərinin genişləndirilməsində də böyük rol oynayan resursa çevrilib. "Made in Azerbaijan" brendi məhsullarının ixrac coğrafiyasını genişləndirmək və yerli istehsalçılara yeni potensial müştərilərin tapılmasında dəstək olmaq məqsədi ilə, daha bir neçə beynəlxalq elektron satış portalları ilə əməkdaşlığa başlanılıb. "Azexport" Azərbaycanda istehsal olunan məhsulların ixracını dəstəkləyən "Alibaba.com", "eBay.com", "Wholesale", "Amazon", "All.biz" kimi dünya elektron ticarət platformalarına inteqrasiya olunub və Azərbaycan məhsullarına beynəlxalq bazarlarda sərfəli potensial alıcı tapmaqda mühüm vasitəyə çevrilib. İndiyə kimi həmin sifarişçilərdən 1 milyard dollardan artıq sorğular daxil olub.



## İxracatçıların xaricdəki məkanı- Ticarət Evləri

Azərbaycanda qeyri-neft ixracının artmasında Ticarət Evlərinin də mühüm əhəmiyyəti var. Azərbaycan məhsullarının xarici bazarlara çıxarılması, satışının təşkili və əlaqələndirilməsində Ticarət Evlərinin imkanları kifayət qədər böyükdür. "Made in Azerbaijan" brendi altında qeyri-neft məhsullarının ixracının artırılması məqsədilə xaricdə Ticarət Evləri 2017-ci ildən yaradılmaqdadır. Azərbaycanın ötən illərdə Rusiya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Ukrayna, Polşa, Latviya, Çin, Qazaxıstanda Azərbaycanın Ticarət Evləri fəaliyyət göstərir.

Ticarət Evləri Azərbaycan məhsullarının təkcə satışı və tanıdılması üçün əhəmiyyət daşımır, bu cür iqtisadi strukturlar həm də iki ölkə arasında faydalı iqtisadi müzakirələr üçün platforma rolunu oynayır, Azərbaycan ixracatçılarının potensial imkanlarını nümayiş etdirir. Son illərdə Azərbaycanla iqtisadi əlaqələri inkişaf etdirən Çində Azərbaycan Ticarət Evlərinin sayının artması da bunu təsdiqləyir. İndiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın Ticarət Evləri açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib.

Eləcə də Körfəz ölkələri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin başlanması bu region ölkələrində də ixrac xəritəsinin coğrafiyasını genişləndirib və yeni Ticarət Evlərinin yaradılması işlərini sürətləndirib. Eyni zamanda, potensial ixrac bazarları ölkələrində logistika mərkəzlərinin yaradılması və Ticarət Evləri ilə fəaliyyətinin əlaqələndirilməsi istiqamətində görülən işlər də yeni ixrac bazarlarının təşkilində mühüm rol oynamaqdadır.

## "Milli ixrac strategiyası" - hədəf xəritəsi...

Azərbaycanın qarşısında duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa, Asiya və digər region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının daha da yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

Ortamüddətli dövrə dair strateji yol xəritələrinə əsasən, qeyri-neft sektoru üzrə ixracın hazırda adambaşına düşən həcminin 200 dollardan 450 dollara çatdırılması hədəflənib. Qeyri-neft ixracını illik 13-15 faiz artırmaqla həmin hədəfə çatmaq mümkündür. Həmin hədəflərə çatmaq üçün yeni sənəd- "Milli ixrac strategiyası" hazırlanıb. Sənəd 15-dən çox hədəf bazarını və 120 çeşid ixrac məhsulunu müəyyən edir.

Strategiyaya əsasən, Azərbaycanın qeyri-neft ixracını 2025-ci ilədək ötən illə müqayisədə iki dəfə artırmaq və 3,7 milyard dollara çatdırmaq planlaşdırılır. Sonrakı illərdə bu rəqəmin 5 milyarda qədər çatdırılması nəzərdə tutulur. Bu məqsədlərə çatmaq üçün xarici ölkələrə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan sahibkarların fəaliyyətinin daha da təşviq edilməsi, "Made in Azerbaijan" və "İnvest in Azerbaijan" ixrac portalları üzrə sifarişlərin daha qlobal ticarət şəbəkələrinə inteqrasiyasının təkmilləşdirilməsi planlaşdırılır. Eləcə də iri şirkətlərin və nüfuzlu investorların Azərbaycana gətirilməsi və yeni ixrac sifarişlərinin alınması, ələlxüsus da bərpaolunan enerji sahələrinə cəlbi məqsədilə yeni iqtisadi alətlərin tətbiqi strategiyanın əsas prioritetləri sırasında yer alır.

***E.CƏFƏRLİ***

# Gəncə III MDB Oyunlarına hazırlaşır

Azərbaycan cari ildə daha bir mötəbər beynəlxalq tədbirə - III MDB Oyunlarına ev sahibliyi edəcək.Yarışlar 2025-ci il sentyabrın 28-dən oktyabrın 8-dək keçiriləcək. III MDB Oyunları 23 idman növü üzrə təşkil edilməklə, "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" olan Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində baş tutacaq. O cümlədən Gəncədə 8, Mingəçevirdə 4, Qəbələdə 4, Şəkidə 3, Göygöldə 2, Yevlaxda 1 və Xankəndidə 1 idman növü üzrə yarışlar təşkil ediləcək.

Hazırda Oyunların keçirilməsinə hazırlıq işləri sürətə davam etdirlir. Prezident İlham Əliyevin 10 iyul 2024-cü ildə imzaladığı müvafiq sərəncama əsasən III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılıb. Dövlət başçısının 29 yanvar 2025-ci il tarixli növbəti sərəncamı ilə Təşkilat Komitəsinin tərkibi yeni redaksiyada verilib. Artıq Baş nazirin müavini, Təşkilat Komitəsinin sədri Samir Şərifovun rəhbərliyi ilə qurumun ilk iclası baş tutub və Oyunlara hazırlıqla bağlı məsələlər ətraflı müzakirə edilib.

## Dünyada Azərbaycana olan yüksək inam

Son illərdə müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi hüququnun Azərbaycana verilməsi bir növ ənənə halını alıb ki, bu da təsadüfi deyil. Müxtəlif məsuliyyətli və genişmiqyaslı tədbirlərə ev sahibliyi etmək hüququnun Azərbaycana verilməsi beynəlxalq birliyin ölkəmizə olan böyük inamının ifadəsidir. İndiki dönəmdə hansısa bir ölkəni dünya birliyi üçün cəlbedici edən cəhətlərdən ən önəmlisi onun beynəlxalq imicidir. Bu kontekstdən çıxış edən beynəlxalq təşkilatlar öz tədbirlərini keçirərkən ölkənin imkanları və resursları ilə yanaşı, qlobal miqyasda mövqelərini də nəzərə alırlar.

Digər istiqamətlərdə olduğu kimi, beynəlxalq idman ictimaiyyəti də Azərbaycana böyük inam bəsləyir. Xatırladaq ki, Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın "İdman paytaxtı" seçib. 2025-ci ilin sonunda Belçikanın paytaxtı Brüsseldə, Avropa Parlamentində Bakı şəhərinin dünyanın "İdman paytaxtı" olaraq rəsmi təqdimat mərasiminin keçirilməsi planlaşdırılır. Eyni zamanda, indiyədək Azərbaycan bir sıra beynəlxalq səviyyəli idman yarışlarına ev sahibliyi edib. Böyük uğurla keçən bu yarışlardan yalnız bir neçəsi barədə daha geniş bəhs etmək yerinə düşər. "Qoca qitə"-nin tarixində 2015-ci ilin yayında ilk dəfə təşkil olunan Birinci Avropa Oyunlarına Azərbaycanın ev sahibliyi etməsi bizim üçün daimi qürur mənbəyi olaraq qalacaq. Birinci Avropa Oyunlarının 2015-ci ilin yayında Bakıda keçirilməsi barədə qərar 2012-ci ilin dekabrında Avropa Olimpiya Komitəsinin (AOK) Baş Məclisində qəbul edilib. Avropanın idman-olimpiya ailəsi Bakının namizədliyini böyük səs çoxluğu ilə dəstəkləyib.

Birinci Avropa Oyunlarından sonra İslam dünyası IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi hüququnu Azərbaycana həvalə etdi. Bu Oyunların da miqyası çox böyük idi. İslam Həmrəyliyi İdman Federasiyasının bütün üzv dövlətləri Oyunlara qatıldılar.

Paytaxt Bakı 2016-cı ildən başlayaraq dünyada çox məşhur olan Formula-1 yarışlarına ev sahibliyi edir. İdman yarışlarının təşkilində böyük təcrübəyə malik olan Azərbaycan təkcə son illərdə gimnastikanın dörd növü üzrə Dünya Kubokuna, yeniyetmə cüdoçular arasında Avropa Kubokuna, bədii gimnastika üzrə 39-cu Avropa çempionatına ev sahibliyi edib. Dünyanın ən güclü snayperlərinin iştirakı ilə keçirilən atıcılıq üzrə Dünya kuboku artıq 8-ci dəfə respublikamızda baş tutub.

## Ölkə boyunca yaradılan müasir idman infrastrukturu



Azərbaycan öz ənənəsinə sadiq qalmaqla III MDB Oyunlarını da yüksək səviyyədə keçirmək əzmindədir. Təşkilat Komitəsinin ilk iclasında idman obyektlərinin hazırlığı, nəqliyyat və logistika məsələləri, iştirakçıların yerləşdirilməsi, könüllülərin cəlb olunması, akkreditasiya prosesi, mediada yayım, açılış və bağlanış mərasimlərinə hazırlıq və digər məsələlər üzrə geniş təqdimatlar edilib. Azərbaycan Prezidentinin lll MDB Oyunları ilə bağlı Tədbirlər Planının həyata keçirilməsini təmin etmək məqsədilə Təşkilat Komitəsinin qarşısında qoyduğu vəzifələrin icrası və digər aidiyyəti məsələlər üzrə müvafiq tapşırıqlar verilib, qurumlar arasında əlaqələndirmənin təmin olunması ilə bağlı konkret vəzifələr müəyyənləşdirilib.

Mötəbər yarışlara ev sahibliyi hüququnun Azərbaycana verilməsini, həmçinin Bakının 2026-cı il üçün Avropanın "İdman paytaxtı" seçilməsini şərtləndirən ən mühüm amillərdən biri yaradılan müasir infrastrukturla bağlıdır. Ölkəmizin böyük uğurla ev sahibliyi etdiyi Birinci Avropa Oyunlarına hazırlıq çərçivəsində həyata keçirilən layihələr respublikamızın idman infrastrukturunu əhəmiyyətli dərəcədə zənginləşdirib.

Eyni zamanda, ölkənin regionlarında da müasir idman qurğuları inşa edilir. Qısa müddətdə ayrı-ayrı bölgələrdə 50-dək idman kompleksi yaradılıb. Müasir idman infrastrukturu ölkəmizdə güclü idmançılar ordusunun yetişməsinə öz müsbət təsirini göstərir. Bu idman qurğularında həmçinin ən mötəbər beynəlxalq yarışların təşkil edilməsi üçün hər cür şərait var.

## Oyunlara hazırlıq üzrə əsas işlər Gəncədə həyata keçirilir

III MDB Oyunlarının keçirilməsi üçün ölkə üzrə bir neçə şəhər seçilsə də, əsas yarışlar Gəncə şəhərində təşkil olunacaq. Buna görə də Oyunlara hazırlıq üzrə əsas işlər də məhz burada həyata keçirilir. Deyə bilərik ki, hazırda şəhər bütünlüklə mötəbər tədbirə hazırlıq işlərinə səfərbər olunub. Gəncə Şəhər İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Gülnar Rzayeva jurnalistlərə bildirib ki, sözügedən oyunlarla əlaqədar Prezident İlham Əliyevin tapşırığı ilə Gəncə şəhərində genişmiqyaslı təmir-tikinti və abadlıq işlərinə start verilib. "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən Gəncə şəhərinin daxili avtomobil yollarında təmir-tikinti işləri həyata keçirilir. AAYDA tərəfindən təmir olunan küçələrin ümumi sahəsi 843 min kvadratmetr təşkil edir. Bununla yanaşı, Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən də şəhərin bir sıra prospektində, küçələrdə və məhəllədaxili yollarda asfalt örtüyü yenilənir. Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən təmir olunan küçələrin ümumi uzunluğu 200 min kvadratmetr təşkil edir. Həyata keçirilən işlər çərçivəsində zəruri olan yerlərdə vətəndaşların təhlükəsiz və rahat hərəkətini təmin etmək üçün yararsız piyada səkiləri təmir olunur, yeni piyada səkiləri inşa edilir, kənarlarına səki daşları düzülür", - deyə şəhər icra hakimiyyətinin rəsmisi vuğulayıb.

Bildirilib ki, Gəncə şəhərində həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində şəhərin bir sıra meydanlarında, park və xiyabanalarda da təmir-bərpa işləri həyata keçirilir. Hazırda Gəncənin Heydər Əliyev adına Mərkəzi Meydanında, həmçinin Gəncəçay Park-Bulvar Kompleksində yerləşən Bayraq meydanında təmir-bərpa işləri görülür.

"Anoloji işlərin "Xan bağı" istirahət parkında, Fikrət Əmirov adına parkda, həmçinin Nizami Kinoteatrının qarşısında yerləşən istirahət parkında da həyata keçirilməsi nəzərdə tutulub", - deyən G.Rzayeva onu da bildirib ki, qeyd olunan məkanların ətrafında yerləşən fərdi və çoxmənzilli yaşayış binalarının fasadlarının təmiri nəzərdə tutulub. Fikirlərinə davam edən icra hakimiyyətinin təmsiçisi bildirib: "Bu işlər şəhərin Heydər Əliyev, Atatürk və Şah İsmayıl Xətai prospektlərini, həmçinin bir sıra ara küçələri də əhatə edəcək. Onu da bildirim ki, fasadları yenilənən çoxmənzilli yaşayış binalarının üzərinə yeni fasad işıqlandırıcıların quraşdırılması da nəzərdə tutulub.

Təbii ki, bu sadalananlar görüləcək işlərin yalnız bir hissəsidir. Bütün bunlarla bərabər, şəhərdaxili ictimai nəqliyyatın yenilənməsi, bir sıra tarixi binaların bərpası nəzərdə tutulur. Eyni zamanda, şəhərdə olan mövcud idman qurğularının əsaslı şəkildə yenidən qurulması və inşası həyata keçirilməkdədir".

***Mübariz ABDULLAYEV***

# Dünya Bankı Xəzərdə ekoloji layihəni maliyyələşdirəcək

**Dünya Bankı (DB) yaxın vaxtlarda "Xəzər dənizinin təmizlənməsi: çirklənmənin idarə edilməsi və biomüxtəlifliyin qorunması potensialının yaradılması" layihəsinin maliyyələşdirilməsini təsdiq edəcək**




Bankın məlumatına görə, layihə Azərbaycan, Qazaxıstan və Türkmənistanın dəniz sularının ekoloji tarazlığının qorunmasına dəstək məqsədi daşıyır. Qlobal Ekologiya Fondu tərəfindən maliyyələşdiriləcək layihənin maliyyə tutumu 12 milyon dollar məbləğində nəzərdə tutulub. BMT-nin Ətraf Mühit Proqramının (UNEP) rəhbərliyi altında 5 il ərzində həyata keçiriləcək maliyyələşdirmə sxemi dörd əsas komponenti əhatə edir. Layihə çirklənmənin monitorinqi və nəzarətinin gücləndirilməsini, həmçinin Xəzər dənizinin hədəf bölgələrində qorunan dəniz ərazilərinin idarə edilməsinin yaxşılaşdırılmasını nəzərdə tutur.

Dünya Bankının mütəxəssislərinin fikrincə, Xəzər ekosistemi unikaldır və burada təxminən 400 endemik növ yaşayır, dünya okeanından uzunmüddətli təcrid isə zəngin biomüxtəliflik formalaşdırıb. Lakin son onilliklərdə dənizdə suyun səviyyəsi əhəmiyyətli dərəcədə azalıb. Proqnozlara görə, 2100-cü ilə qədər bu göstərici iqlim dəyişikliyi və su ehtiyatlarının təsərrüfat məqsədilə istifadəsi səbəbindən 8-30 metr aşağı düşə bilər.

DB layihəsinin əsas istiqamətlərinə iştirakçı ölkələr arasında koordinasiyanın gücləndirilməsi, dəniz məkanının planlaşdırılması (MSP), təlimlərin keçirilməsi və təcrübə mübadiləsi, anlaşma memorandumlarının imzalanması, regional institutların potensialının gücləndirilməsi və s. daxildir.



Çirklənmənin idarə edilməsi üzrə tədbirlər çərçivəsində yerüstü çirklənmə mənbələrinin inventarının yaradılması, çirklənmənin "qaynar nöqtələr"inin və əlaqədar iqtisadi itkilərin təhlili, çirklənmənin azaldılması üzrə milli və regional proqramların hazırlanması, avadanlıqların alınması və ekoloji treninqlər, çirklənmənin monitorinqi, ekoloji cəhətdən təhlükəsiz texnologiyaların inkişafı, habelə ictimai informasiya kampaniyalarının keçirilməsi planlaşdırılır.

Bundan əlavə, mühafizə olunan dəniz ərazilərinin (OMT) şəbəkəsinin yaradılması və genişləndirilməsi, OMT idarəetmə planlarının hazırlanması və həyata keçirilməsi, qorunan ərazilərin idarə edilməsi üçün kadr hazırlığı, davamlı balıqçılığa dəstək və balıqçı icmaları üçün əlavə dəyərin inkişafı, biomüxtəlifliyin itirilməsindən yaranan iqtisadi zərərin qiymətləndirilməsi, nəsli kəsilməkdə olan növlərin siyahılarının hazırlanması, məlumatlandırma kampaniyalarının keçirilməsi və GEF IW platformasında iştirak gözlənilir.

Layihə çərçivəsində UNEP Tehran Konvensiyası Katibliyi yanında Layihə Koordinasiya Mərkəzinin (PCU) yaradılması, həmçinin Regional Rəhbər Komitənin və texniki qrupların formalaşdırılması nəzərdə tutulur.

Layihə Dünya Bankının Azərbaycan və Qazaxıstan üçün Tərəfdaşlıq Çərçivə Strategiyalarının (CPF) həyata keçirilməsinə kömək edir. Eyni zamanda o, Türkmənistanın Milli İnkişaf Strategiyasını dəstəkləyəcək. O, həmçinin "mavi iqtisadiyyat"a, çirklənmə məsələlərinə və Xəzərin biomüxtəlifliyinin qorunmasına xüsusi diqqət yetirməklə, DB-nin Mərkəzi Asiya üzrə Regional Strategiyasına uyğundur.

Uzunmüddətli məqsədləri nəzərə alaraq, layihə Xəzər dənizinin ekoloji balansının qorunmasına və təbii resursların səmərəli idarə edilməsi üçün regional əməkdaşlığın inkişafına yönəlib. Onun həyata keçirilməsinin çirklənmənin nəticələrini minimuma endirməyə, regionda ekoloji vəziyyəti yaxşılaşdırmağa və gələcək nəsillər üçün biomüxtəlifliyi qorumağa kömək edəcəyi gözlənilir.

# Ermənistanın mina terroru ifşa olunur

## Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasının 58-ci sessiyasında bəyanatla çıxış edib

Dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biri kimi Azərbaycan beynəlxalq müstəvidə Ermənistanın səbəb olduğu bu terror siyasətini ifşa etməkdədir. Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 58-ci sessiyasında Azərbaycanın daimi missiyası bununla bağlı bəyanat təqdim edib. Bəyanatda Azərbaycan öz ərazisində mina çirklənməsinin yüksək səviyyəsi ilə bağlı narahatlığını ifadə edib, əhalinin böyük bir hissəsinin keçmiş işğal olunmuş ərazilərdə erməni qüvvələri tərəfindən yerləşdirilmiş minalardan əziyyət çəkdiyini vurğulanıb: "Mina çirklənməsi və Ermənistanın dəqiq mina sahələri xəritələrini təqdim etməkdən imtina etməsi qadınlar və uşaqlar da daxil olmaqla insanların həyatını almağa və şikəst etməyə davam edir". Rəsmi Bakı beynəlxalq ictimaiyyəti bu ərazilərin minalardan təmizlənməsində dəstək göstərməyə çağırıb və xüsusi məruzəçidən mina qurbanları probleminə diqqət yetirməsini xahiş edib.

### 70 nəfər həlak olub, 314-ü yaralanıb...

Ümumiyyətlə, ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar işğaldan azad edilmiş bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına ciddi maneə törədir. Ermənistan tərəfindən 30 ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir. Bütün bu kimi səbəblərdən 44 günlük Vətən müharibəsindən sonra mina qurbanlarının sayı artmaqdadır. Rəsmi məlumatlara əsasən, hərbi əməliyyatlar başa çatdıqdan sonra hazırkı dövrədək həmin ərazilərdə mina partlayışı ilə bağlı 231 hadisə qeydə alınıb, nəticədə 70 nəfər həlak olub, 314-ü yaralanıb.

Xüsusilə, mina qurbanlarının sayının artmasının əsas səbəblərindən biri Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir. Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın minaları təmas xəttindən kənarda basdırmasının məqsədi də mülki insanların daha çox itki verməsi məqsədi daşıyır. Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir. Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir.






### Dünya birliyindən fəal dəstək gözləyirik

Azərbaycan öz ərazilərinin minalardan təmizlənməsi işində beynəlxalq təşkilatlardan fəal dəstək gözləyir. Doğrudur, bəzi beynəlxalq təşkilatlar və ölkələr bu məqsədlə müəyyən maliyyə dəstəyi ayırıb. Amma qeyd etdiyimiz kimi, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır. Onlar Ermənistan tərəfindən törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına sərt reaksiya verməli, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təsirlər göstərməlidir.

**Nardar BAYRAMLI**

# Erməni təcavüzünün qurbanları

## 3983 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb

### Azad edilmiş ərazilərdə itkin vətəndaşlarımıza aid məzar yerlərinin müəyyən olunması əsas vəzifələr sırasındadır

Ermənistan torpaqlarımızın işğalı dövründə xalqımıza qarşı çoxsaylı cinayətlər törədib. Azərbaycana qarşı hərbi təcavüz zamanı dinc insanlar kütləvi qətlə yetirilib, girov götürülüb, eləcə də yaşayış məntəqələri tamamilə dağıdılıb. Eyni zamanda, müharibə dövründə itkin düşmüş minlərlə azərbaycanlının taleyi bugünədək məlum deyil.

Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdə kütləvi məzarlıqlar aşkar olunub. Məzarlıqlarda basdırılmış insanlar Birinci Qarabağ müharibəsində itkin düşənlərdir. Onların bəzilərinin kimliyi müəyyənləşdirilərək ailələrinə təhvil verilib və dəfn olunublar. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə bu istiqamətdə davamlı olaraq işlər aparılır.

Martın 10-da Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (ICMP) "Azərbaycan Respublikasında itkin düşmüş şəxslərin axtarışı üzrə qiymətləndirmə hesabatı"nın təqdimat mərasimində Komissiyasının katibi Qəzənfər Əhmədov bildirib ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3983 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3977 nəfəri Birinci Qarabağ müharibəsində, 6 nəfəri isə 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində itkin düşüb. İtkin düşmüş 3983 nəfərdən 3209-u hərbçi, 774-ü mülki şəxslərdir.



### İtkin düşənlərin 285-i qadındır

Q.Əhmədov bildirib ki, itkinlərdən 3698-i kişi, 285-i qadındır: "2020-ci ildə 44 günlük müharibədən və 2023-cü ildə həyata keçirilmiş antiterror tədbirlərindən sonra işğaldan azad edilmiş ərazilərdə itkin vətəndaşlarımıza aid məzar yerlərinin müəyyən olunması, zəruri qazıntı və ekshumasiya işlərinin aparılması Prezident İlham Əliyevin Dövlət Komissiyasının qarşısında qoyduğu ən ümdə vəzifədir. Bu məqsədlə 2021-ci ilin fevral ayından etibarən həmin ərazilərdə itkin düşmüş şəxslərə aid edilən məzar yerlərinin axtarışı, qazıntı, ekshumasiya və aşkarlanmış meyit qalıqlarının eyniləşdirilməsi prosesinə intensiv şəkildə başlanılıb". Son məlumata əsasən, 688 itkin düşmüş şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanıb. Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 165 nəfərin şəxsiyyəti eyniləşdirilərək ictimaiyyətə açıqlanıb, ailələrinə təhvil verilib, qanunvericiliyin tələblərinə və milli-dini ənənələrə uyğun dəfn ediliblər.



### 170 əsir işgəncələrlə öldürülüb

Sözügedən tədbirdə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) rəisinin müavini, general-leytenant Şərafət Həsənov 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddiaları və həyata keçirdiyi işğal faktı ilə bağlı ölkəmizin silahlı münaqişəyə cəlb edildiyini və bunun nəticəsində genişmiqyaslı humanitar fəlakətlə üzləşdiyini diqqətə çatdırıb. Bildirib ki, hərbi əməliyyatlar nəticəsində 19 mindən çox vətəndaşımız öldürülüb və ya itkin düşüb, 65 mindən artıq insan müxtəlif bədən xəsarətləri alıb.

Açıqlanan məlumatlara görə, itkin düşmüş mülki şəxslərdən 75 nəfəri yetkinlik yaşına çatmamışlar, 116-sı qadın, 315-i isə yaşlı insanlardır. İstintaqla sübut edilib ki, 170 azərbaycanlı əsir Ermənistan silahlı birləşmələri tərəfindən işgəncələrlə öldürülüb. Hazırda itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi ən vacib vəzifələrdən biridir. Azərbaycan Respublikasının Əsir və itkin düşmüş girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən qısa müddətdə bu sahədə müəyyən işlər həyata keçirilsə də, bir sıra amillər itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi işinə mane olur. Belə ki, 30 illik işğal dövründə ərazilər mina və partlamamış sursatlarla həddindən artıq çirkləndirilib. Bu amil prosesə mənfi təsir göstərir.

İtkin düşmüş azərbaycanlıların taleyinə beynəlxalq təşkilatlar laqeyd qalmamalıdır. Problemin həlli ilə əlaqədar Ermənistana ciddi təzyiqlər göstərilməlidir.

**Nardar BAYRAMLI**

# İrəvan regional münasibətləri normallaşdırmaq istəyirsə...

## Bakının irəli sürdüyü şərtlərə əməl olunmalıdır

2022-ci ildən start götürmüş sülh prosesi ümumilikdə Cənubi Qafqazın yeni inkişaf mərhələsinə qədəm qoyması üçün real vasitə kimi əhəmiyyətini artırır. Azərbaycan ilə Ermənistan arasında sülhün imzalanması bütövlükdə həm Bakı-İrəvan, həm də Ankara-İrəvan münasibətlərinin normallaşmasına yol aça bilər. İndiki məqamda İrəvan həm də Türkiyə ilə münasibətləri yeni çərçivəyə salmaqda maraqlı olmalıdır - çünki Türkiyə ilə Azərbaycanın strateji əməkdaşlığı bölgədə yeni təhlükəsizlik arxitekturası yaratmaqla yanaşı, həm də bölgənin gələcək inkişafının əsas formulunun müəllifi sayılır. Bölgədə yeni münasibətlər sisteminin qurulması birmənalı şəkildə Ermənistanın siyasi iradəsindən asılı olacaq - Azərbaycanın irəli sürdüyü şərtlərə "hə" deyəcək İrəvan Bakı ilə yanaşı, Türkiyə ilə də münasibətlərin normallaşması prosesində mühüm mərhələ qət edəcək. Türkiyə ilə münasibətlərin yaradılması isə Ermənistan üçün mühüm dividendlər vəd edir.

### Ankaranın mövqeyi...

Qeyd edək ki, Türkiyənin bu məsələdə mövqeyi açıq və qətidir - Ankara ilə İrəvan arasındakı müzakirələr birmənalı şəkildə Azərbaycanla koordinasiyalı formada həyata keçirilir. Başqa sözlə, İrəvan Türkiyə ilə münasibətləri tənzimləməsi üçün sülhü gecikdirməməlidir. Çünki Azərbaycan ilə Ermənistan arasında sülhün yaranması fonunda İrəvan-Ankara münasibətlərinin də yeni mərhələyə qədəm qoyması bütövlükdə regionun iqtisadi gələcəyi üçün mühüm perspektiv yaradır. Təsadüfi deyil ki, bir neçə gün öncə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan səfirlərlə iftar proqramında çıxışı zamanı bildirmişdi ki, Cənubi Qafqazda sabitlik üçün səylərini, o cümlədən Ermənistanla münasibətlərin normallaşdırılmasını davam etdirir. Bu kontekstdə Zəngəzur dəhlizinin açılması Ermənistanın həm Türkiyə, həm Azərbaycan, həm də bütövlükdə dünya ilə əlaqələrin yeni müstəviyə qaldıra bilər. İrəvan bu dəhlizin kömüyilə Türkiyə ilə də normal iqtisadi-siyasi əlaqələr qurmağa, regional tranzitlərə, Şərq-Qərb dəhlizinə qoşulmaq imkanı qazanmış olar.



### Mirzoyan Türkiyə ilə münasibətlərdən danışdı...




Ermənistan isə sözdə "sülh mesajları"nı davam etdirir. Əmələ, danışıqlarda irəliləyiş üçün qəti addımlar atmalı olan İrəvan sadəcə olaraq özünü sülhpərvər qiyafədə təqdim edir. Maraqlıdır ki, Türkiyənin sülhlə bağlı qəti mövqeyini bilən Ermənistan bu məsələ üzərindən də manipulyasiya aparmağa cəhd göstərir. Erməni nazir belə bir görüntü yaratmağa çalışır ki, Türkiyə tərəfi ilə aparılan danışıqlar Azərbaycanla aparılan danışıqlarla əlaqələndirilmir. Halbuki Türkiyə rəsmiləri hər zaman bildirirlər ki, Ermənistanın Türkiyə ilə münasibətlərinin inkişafı Azərbaycanla imzalanacaq sülhdən asılıdır.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Hindistan Dünya İşləri Şurasında (ICWA) bildirib ki, Ermənistan Türkiyə ilə dialoqu davam etdirir və lazım olan bütün əməli addımları atır. "Əminik ki, tam həll, xüsusən diplomatik münasibətlərin qurulması və sərhədlərin açıldığı bu dövrdə regional sülh və sabitliyə mühüm töhfə verəcək. Biz bu dialoqu davam etdiririk və əməli addımlar atmışıq. Biz həmçinin iki ölkənin sərhədində yerləşən Ani körpüsünü birgə bərpa etmək barədə razılığa gəlmişik. Bu, birbaşa hava nəqliyyatının qurulması və hava nəqliyyatı ilə yük daşınması ilə bağlı artıq qəbul edilmiş qərarları tamamlayır. Biz eyni zamanda diplomatik pasportları olan şəxslər və üçüncü ölkələrin vətəndaşları üçün sərhədin açılması barədə razılaşmışıq", - Mirzoyan deyib.

Onun sözlərinə görə, bu razılaşmaların həyata keçirilməsi təkcə Ermənistan və Türkiyənin deyil, bütün regionun xeyrinə olacaq, çünki nəqliyyat yollarının bərpa edilməsi regional sülh və sabitlik üçün həlledici amilə çevriləcək.

### Ermənistan səmimidirsə...

Vurğulayaq ki, Ermənistan tez-tez bu kimi "fəndlərə" müraciət edir - məsələn, bir müddət öncə, Nikol Paşinyan İsveçrədə erməni diasporunun üzvləri ilə görüş zamanı demişdi ki, "Biz "erməni soyqırımı"nın tarixinə qayıtmalıyıq. Nəyin nə üçün baş verdiyini başa düşməliyik". O, "erməni soyqırımı" iddiasının tarixinin və necə ortaya atılmasının araşdırılmalı olduğunu bildirmişdi: "Biz bu məsələni necə və kimin köməyi ilə qəbul etdiyimizi bilməliyik. Necə olur ki, 1939-cu ildə bu mövzudan, ümumiyyətlə, heç yerdə bəhs edilmir, amma 1950-ci ildə anidən gündəmə gəlir? Aydınlaşdırılmalıdır".

Erməni xislətinin bütün mahiyyəti ilə yaxından tanış olduğumuz üçün Paşinyanın və Mirzoyanın bu davranışları ilk baxışdan qeyri-səmimi görünür. Ortada məntiq var - əgər, həqiqətən də Ermənistanın siyasi hakimiyyəti sülhü ölkəsi üçün vacib sayırsa, Türkiyə və Azərbaycanla qonşuluq əlaqələri qurmağa çalışırsa, nə üçün ölkə Konstitusiyasında dəyişiklik edilməsi ilə bağlı qərar vermir? Deməli ki, Ermənistan rəhbərliyi sadəcə olaraq Türkiyə ilə münasibətləri Azərbaycan ilə aparılan sülh prosesindən ayırmaq üçün bu yola əl atır.

**P.SADAYOĞLU**

# Üzvlük haqqı ödənməsə...

## KTMT üzvləri Ermənistan haqda qərar verəcək

Ermənistan artıq bir neçə ildir ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) qeyri-rəsmi də olsa çıxdığını bəyan edib. Daha doğrusu, qurumda fəaliyyətini dondurduğunu bəyan edən İrəvan üzvlük haqqını belə ödəmir. Bu ölkə təşkilat çərçivəsində keçirilən fərqli strtukturların görüşlərinə qatılmır, keçirilən hərbi təlimlərdə iştirak etmir. 2023-cü il yanvar ayında öz ərazisində KTMT təlimlərinin keçirilməsinə etiraz edən rəsmi İrəvan hətta həmin ilin martında öz nümayəndəsini KTMT rəhbərinin müavini vəzifəsinə təyin etməkdən belə imtina etmişdi - 2023-cü ilin noyabrında isə Ermənistan baş naziri İrəvanda keçirilən təşkilatın sammitinin yekun sənədini imzalamamışdı.

Son olaraq ötən il noyabrın 28-də Astanada keçirilən KTMT Kollektiv Təhlükəsizlik Şurasının iclasında təmsil olunmayan Ermənistan bununla da mövqeyini tam şəkildə ortaya qoyur. Son dövrlərdə Ermənistandakı 102-ci Rusiya hərbi bazası ilə bağlı ortaya çıxan bəzi məsələlər də onu göstərir ki, İrəvan ilə Moskva bu məsələdə hələ də fikir ayrılığı yaşayır.

### Ermənistan təşkilatdan çıxmayıb...



Qeyd edək ki, Ermənistan KTMT-dəki fəaliyyətini dondurduğunu bəyan etsə də, təşkilatı tərk etməsi ilə bağlı addım atmayıb. Bunun mexanizmi olduqca çətindir. Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankin də açıqlamasında İrəvanın KTMT-dən çıxmaqla bağlı bildiriş vermədiyini bildirib. "Yerevan qurumu tərk etmək barədə xəbərdarlıq etməyib, onlar getməyə hazırlaşmırlar, sadəcə fəaliyyətlərini dondurublar. Amma KTMT-nin üzvü olaraq qalırlar", - deyə Pankin bildirib. Qeyd edib ki, Ermənistan 2025-ci ilin sonuna kimi KTMT büdcəsinə üzvlükhaqqını ödəməsə, təşkilata üzv ölkələr müxtəlif ssenariləri nəzərdən keçirə bilərlər. "Yanvarın 1-nə (2026-cı il - red.) qədər ödəniş olunmasa, bu iki illik ödənişsiz dövr deməkdir. Fikrimcə, ölkələr bununla bağlı lazımi qərarı qəbul edəcəklər. Yəqin ki, qurumdan ixrac edilməyəcək".

Pankin qeyd edib ki, indiyə qədər də digər ölkələrin texniki, maliyyə və digər səbəblərdən borclanması halları olub. Xatırladaq ki, 2024-cü ilin fevralında Ermənistanın baş naziri Nikol Paşinyan KTMT-də iştiraklarını dondurduqlarını bəyan etmişdi. Paşinyan həmçinin bildirmişdi ki, Ermənistanın KTMT-yə qayıtması getdikcə çətinləşir, hətta onun sözlərinə görə, bu, geri dönüşü olmayan bir yoldur.

Rusiya XİN başçısının müavini Mixail Qaluzin isə bəyan edib ki, Ermənistanı bu addımı atmağa Qərb sövq edib.

### 30 ildən sonra...



Ermənistan isə Rusiya ilə hərbi əlaqələrini daha da məhdudlaşdırmağa çalışır. Artıq 2025-ci il yanvarın 1-dən etibarən Rusiya sərhədçiləri Ermənistan və İran sərhədindəki keçid məntəqəsini tərk ediblər. O vaxtdan etibarən Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları İranla sərhədin mühafizəsi üçün bütün məsuliyyəti öz üzərlərinə götürüblər.

Ötən ilin avqustunda isə Ermənistan Rusiya sərhədçilərini "Zvartnots" aeroportundan çıxardı. Xatırladaq ki, 1991-ci ildə Ermənistan müstəqillik əldə edən zaman respublikanın öz sərhədçiləri yox idi və sərhədlərini müstəqil şəkildə qoruya bilmirdi. Rusiya Federasiyası ilə Ermənistan arasında xarici sərhədlərin birgə mühafizəsi haqqında müqavilə bağlandı - 1992-ci il sentyabrın 30-da İrəvanda "Rusiya Federasiyasının Ermənistan Respublikası ərazisində yerləşən Sərhəd Qoşunlarının statusu və onların fəaliyyət göstərməsi şərtləri haqqında" dövlətlərarası saziş imzalandı. Sənədə əsasən, Ermənistanın Türkiyə (uzunluğu - 345 km) və İranla (45 km) sərhədi Rusiya sərhədçiləri tərəfindən qorunur.

İlk illərdə Ermənistanda Rusiya sərhəd dəstəsi Rusiyanın Federal Sərhəd Xidmətinin (FBS) Qafqaz Xüsusi Sərhəd Dairəsinin tərkibində "Ermənistan" hərbi qrupu adlanırdı. 1999-cu ilin mayında isə hərbi qrupun əsasında Rusiya Federal Sərhəd Xidmətinin Ermənistanda Əməliyyat Qrupu yaradıldı. 2002-ci ilin avqustundan sərhəd birliyi Rusiyanın Ermənistanda Federal Sərhəd Mühafizə Xidmətinin Sərhəd Qrupu adlanmağa başladı. 2003-cü ildə FBS-in funksiyaları Rusiyanın Federal Təhlükəsizlik Xidmətinə (FTX) verildikdən sonra Ermənistanda Rusiya Federasiyası FTX-nin sərhəd şöbəsi yaradılıb. Artıq uzun illərdir ki, adıçəkilən aeroport da daxil olmaqla Ermənistanın bir sıra strateji obyekti həmin sərhəd şöbəsi tərəfindən qorunur.

### 102-ci baza ləğv edilir?

İki ölkə arasında imzalanmış müqaviləyə görə, hərbi baza Ermənistanda 49 il qalmalıdır. Belə ki, bununla bağlı iki dövlət 1995-ci ildə 25 il müddətinə sənəd imzalayıb. 2010-cu ildə isə hərbi bazanın dislokasiya müddəti uzadılıb. Yəni, imzalanmış sənədə əsasən 102-ci hərbi baza 2044-cü ilə qədər Ermənistan ərazisində qalmalıdır.

Məsələ bununla da yekunlaşmır. Yeni mərhələdə artıq Ermənistan 102-ci hərbi bazanın çıxarılması məsələsini gündəmə gətirir. Qeyd edək ki, son dövrlərdə bununla bağlı proses açıq təmayüllə aparılır. Ölkənin fərqli siyasi kəsimlərinin nümayəndələri bu haqda fikirlərini bildirirlər. Gümrüdə yerləşən 102-ci Rusiya hərbi bazası 1995 -ci ildə yaradılıb. Baza Rusiya Federasiyasının Silahlı Qüvvələrinin Quru Qoşunlarının tərkibindəki Cənub Hərbi Dairəsinə tabedir. Təxminən 5 min nəfərə yaxın şəxsi heyətə malikdir. Baza ümumilikdə 13 döyüş və 17 təchizat-təminat bölməsindən ibarətdir. Bazada digər silah və hərbi texnika ilə yanaşı, C-300 zenit-raket kompleksi, Miq-29 qırıcıları, Mi-24P və Mi-8MT helikopterləri də var.

Artıq bir neçə gündür ki, "Teleqram" kanallarında 102-ci bazadan avtokalonların, hərbi texnikaların çıxması və onların müxtəlif istiqamətlərdə hərəkət etməsi nümayiş olunur. Hətta bu, bazanın Ermənistanı tərk etməsi ilə bağlı xəbərlərin yayılmasına da yol açıb. Amma Ermənistanın bir sıra yerli siyasi texnoloqları bildirirlər ki, bu görüntülər 102 saylı bazanın Ermənistanda qalacağını deməyə əsas verir. Belə ki, onların fikrincə, Rusiya son "sərhədçi əməliyyatına" görə Ermənistana əzələ nümayiş etdirir...

**S.İSMAYILZADƏ**

# Yaxın Şərqdə yeni geosiyasi mənzərə formalaşır

Yaxın Şərqdə fərqli siyasi mənzərə formalaşmağa başlayır - böyük ehtimalla, yeni dünya nizamında Yaxın Şərqdə geosiyasi və geoiqtisadi proseslər məhz region dövlətləri tərəfindən müəyyən olunacaq. Türkiyə regionda geostrateji güc mərkəzinə çevrilib. Ankaranın həm İraqda, həm də Suriyada sabitlik və təhlükəsizliyin təmin olunmasında mühüm rolu, Suriyanın ərazi bütövlüyünün təminatına zamin durması və bu ölkənin yenidən qurulmasına töhfələr verməsi, eyni zamanda region dövlətləri arasında iqtisadi əməkdaşlığın möhkəmlənməsi istiqamətində nailiyyətləri danılmaz faktlardır.

Sözsüz ki, Türkiyənin Yaxın Şərq strategiyası regionda yeni dövrün başlanğıcını qoymağa istiqamətlənib. İstər diplomatik-siyasi, istərsə iqtisadi-enerji, istərsə də hərbi-təhlükəsizlik baxımından Türkiyənin bu yöndə çabaları öz qiğılcımlarını göstərməkdədir.

### Mərkəzdənqaçmanın qarşısı alınır

Suriyanın müvəqqəti prezidenti Əhməd əl-Şəraa və "Suriya Demokratik Qüvvələri"nin (SDQ) başçısı Mazlum Abdi SDQ qüvvələrinin Suriya Ərəb Respublikasının qurumlarına (həm hərbi, həm də mülki) inteqrasiyasını nəzərdə tutan saziş imzalayıblar. Sazişin müddəalarına görə, YPG/ PYD-yə bağlı bütün mülki və hərbi qurumlar, Suriyanın şimal-şərqindəki hava limanları, neft-qaz yataqları, o cümlədən strateji əhəmiyyət daşıyan digər obyektlər yenə Suriya hakimiyyətinin idarəçiliyinə veriləcək. Bölgədə atəşkəs elan olunacaq və PYD/YPG-yə bağlı bütün silahlı qruplar Suriya ordusuna daxil ediləcək. Sazişdə, həmçinin Suriyanın ərazi bütövlüyünün və suverenliyinin zəruriliyi yer alıb.

KİV-lərin məlumatında qeyd olunur ki, "Suriya Demokratik Qüvvələri" ölkənin şimal-şərqində xüsusi idarəetmə statusu əldə edəcək, onlar daxili azadlıqlara malik olacaq, xarici siyasətdə isə Dəməşqdən asılı olacaqdır.



Türkiyənin xarici işlər naziri Hakan Fidan jurnalistlərə son açıqlamasında bildirib ki, Ankara İŞİD və digər terror təşkilatlarına qarşı mübarizədə region ölkələri ilə əməkdaşlıq edəcək. Türkiyə, Suriya, İordaniya, İraq və Livan bu məsələdə ortaq razılaşmaya gəliblər. Türkiyə XİN rəhbəri bildirib ki, Türkiyə uzun müddətdir ki, bu mübarizəni öz tərəfindən aparır: "İŞİD yalnız bir ölkəyə deyil, bütün regiona zərər vurduğundan, təkbaşına bu qruplaşma ilə mübarizə aparmaq çətindir. Buna görə də bizim üçün birləşmək və güclü bir platforma yaratmaq vacibdir. Bu platformanın yaradılması üçün ilk addımı atdıq və bu birgə əməliyyat mərkəzinin qurulması prosesinin başlanğıcı olacaq".

### Terrora qarşı əməkdaşlıq güclənir

Məsələ ilə bağlı Yaxın Şərq üzrə ekspert Vüqar Ziferoğlu "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Türkiyə İraq və Suriya daxil olmaqla, bütöv bir regionda terrora qarşı mübarizədə uğurlu siyasət aparıb. "Bildiyiniz kimi, Türkiyə artıq neçə on ildir ki, bölücü terrorun hədəfindədir. Bu illər ərzində Türkiyə terrora qarşı mübarizədə hər zaman prinsipal və aydın xətt izləyib. Nəinki ölkə içində, həm də qonşu bölgələrdə terrora qarşı mübarizədə önəmli addımlar atıb. Hazırda isə biz, yalnız Türkiyə baxımından deyil, bütövlükdə bölgə baxımından da əhəmiyyətli proseslərə şahid oluruq. Ümid etmək olar ki, bu proseslər öz müsbət sonluğuna varacaq və bölücü terror öz fəaliyyətini dayandıracaq".



### Regional sabitliyə mühüm töhfə

V.Ziferoğlu vurğulayıb ki, Suriyanın yeni hakimiyyəti ilə ABŞ-ın dəstəklədiyi və Suriya Demokratik Qüvvələri arasında əldə edilmiş razılaşma, ölkənin ərazi bütövlüyünün təmin edilməsi və sabitliyin bərqərar olması istiqamətində mühüm bir addımdır. Politoloqun fikrincə, bu addım, həmçinin, ölkədəki müxtəlif etnik və dini qruplar arasında birliyi gücləndirərək, daxili sabitliyin təmin edilməsinə töhfə verəcək: "SDQ-nin Suriya ordusuna inteqrasiyası ölkənin təhlükəsizlik qüvvələrinin birləşdirilməsinə və vahid komandanlıq altında fəaliyyət göstərməsinə şərait yaradacaq. Bu da öz növbəsində, ölkədəki təhlükəsizlik vəziyyətinin yaxşılaşmasına və terror qruplaşmalarına qarşı mübarizənin effektivliyinin artmasına səbəb olacaq. Razılaşma, həmçinin beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanıb və Suriyanın yenidən qurulması prosesinə dəstək verilməsi üçün zəmin yaradır. Almaniya və Fransa kimi ölkələr, Suriyanın yeni hakimiyyəti ilə əməkdaşlığa hazır olduqlarını bildiriblər. Ümumilikdə, bu razılaşma, Suriyanın ərazi bütövlüyünün təmin edilməsi və ölkədə sabitliyin bərqərar olması istiqamətində əhəmiyyətli bir addım kimi qiymətləndirilir".

### Risklər

Politoloqun sözlərinə görə, ABŞ-ın birbaşa vasitəçiliyi ilə baş tutan bu razılaşma qısa müddətdə müəyyən stabillik yaratsa da, uzunmüddətli perspektivdə ciddi risklərə səbəb ola bilər: "SDQ daxilində fərqli qrupların olması bu razılaşmanın icrasını çətinləşdirə bilər. Əgər razılaşma SDQ-yə kifayət qədər siyasi və ya iqtisadi üstünlüklər verməzsə, bu, təşkilat daxilində parçalanmalara gətirib çıxaracaq".

Son zamanlarda Türkiyə, İraq, Suriya və digər ərəb ölkələri arasında İŞİD və digər terror qruplaşmalarına qarşı vahid və koordinasiyalı mübarizə aparmaq üçün əlverişli şərait formalaşmağa başlayıb.

### Region dövlətləri Türkiyə ilə hesablaşır

V.Zifəroğlu bildirib ki, martın 8-də İordaniyanın paytaxtı Əmmanda Türkiyə, İordaniya, İraq və Suriyanın xarici işlər və müdafiə nazirləri, baş qərargah rəisləri, həmçinin kəşfiyyat rəhbərlərinin iştirakı ilə yüksək səviyyəli görüş keçirilib: "Görüşdə təhlükəsizlik, terrorizmlə mübarizə və regional əməkdaşlıq barədə müzakirələr aparılıb. Bu toplantıda İŞİD və digər terror qruplaşmalarına qarşı birgə əməliyyat mərkəzinin yaradılması qərarı da verilib. Eyni zamanda Türkiyə və İraq arasında hərbi, təhlükəsizlik və terrorizmlə mübarizə sahələrində əməkdaşlığı gücləndirmək məqsədilə Ankarada yüksək səviyyəli təhlükəsizlik danışıqları aparılıb və nəticədə tarixi bir anlaşma imzalanıb. Bu anlaşma, iki ölkə arasında ortaq təhlükəsizlik koordinasiya mərkəzinin yaradılmasını və ortaq təlim və əməkdaşlıq mərkəzinin qurulmasını nəzərdə tutur," - deyən V.Zifəroğlu əlavə edib ki, Türkiyə Suriyanın ordu quruculuğu prosesinə də birbaşa dəstək verəcək: "Bütün bu məqamlar həm qardaş ölkənin bölgədə ciddi nüfuzundan, həm də Yaxın Şərq regionunda terrorizmlə mübarizədə ölkələr arasında koordinasiyalı və birgə fəaliyyətin gücləndirilməsindən xəbər verir".

**Yunis ABDULLAYEV**

# Yelisey Sarayı beynəlxalq qınaq qarşısında

Bu gün Avropanın böyük çətinliklərlə üzləşən dövlətlərindən biri də Fransadır. Makronun iki prezidentliyi dönəmində həyata keçirdiyi ardıcıl olmayan səriştəsiz siyasət Fransanı bir növ quyunun dibinə salıb. Ölkə istisnasız olaraq hər sahədə ciddi uğursuzluqlarla üzləşir. Ancaq Makron iqtidarı xarici və daxili siyasətindəki qeyri-sabitliyə görə öz məsuliyyətini unudaraq ölkə hüdudlarından kənarda günahkar axtarır. Son vaxtlarda Yelisey Sarayının təmsilçilərinin Fransanın problemlərinin guya bir sıra xarici dövlətlərdən, o cümlədən də Azərbaycandan ixrac edildiyinə dair səsləndirdikləri iddiaların sayı artıb. Bu xüsusda Fransanın daxili işlər və dənizaşırı ərazilər nazirləri, Milli Assambleyasının üzvü və digərləri danışıblar. Respublikamız Fransada daxili sabitliyi pozmaqda, müxtəlif coğrafiyalarda Yelisey Sarayının siyasətinə qarşı təbliğat aparmaqda günahlandırılıb.

## Azərbaycan qətiyyətlə rədd edir

Təbii ki, Makron komandasının sırf daxili auditoriyaya hesabladığı bu kimi iddialarının hansa bir obyektiv əsası yoxdur. Azərbaycan heç bir ölkənin, o cümlədən də Fansanın daxili işlərinə qarışmır. O başqa məsələdir ki, ölkəmizin siyasəti müstəqillik, suverenlik, ədalət və beynəlxalq hüquq normalarına əsaslanır. Bu kimi məsələlərdə selektiv yanaşmalara yol vermək olmaz. Azərbaycan milli maraqları, azadlığı uğrunda mübarizə aparan xalqlara həmişə mənəvi-siyasi dəstək verib və bu mövqeyinə gələcəkdə də sadiq qalacaq.

Azərbaycan Yelisey Sarayının rəsmilərinin, Fransa parlamentinin təmsilçilərinin absurd iddialarını qətiyyətlə rədd edir. Parisdən gələn bu kimi iddialara Bakıdan verilən cavab özünü çox gözlətməyib. Bu günlərdə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın dənizaşırı ərazilər naziri Manuel Valsın "BFMTV"yə müsahibəsi zamanı ölkəmiz əleyhinə səsləndirdiyi əsassız iddialara dair yerli medianın sualını cavablandırıb. Jurnalistlərin "Fransanın dənizaşırı ərazilər naziri Manuel Valls "BFMTV"yə müsahibəsi zamanı növbəti dəfə Azərbaycanı Fransaya qarşı guya hibrid müharibə aparmaqda, habelə dənizaşırı ərazilərdə müstəqillik tərəfdarlarını dəstəkləməklə Fransaya xarici müdaxilədə günahlandırıb. Məsələ ilə bağlı Xarici İşlər Nazirliyinin rəsmi mövqeyi nədən ibarətdir?" sualına mətbuat katibi belə cavab verib: "Fransa tərəfinin dənizaşırı ərazilərdəki uğursuz siyasətini, kolonializm keçmişini davam etdirmək səylərini ört-basdır etmək üçün ölkəmizi ittiham edərək, təkrar-təkrar səsləndirdiyi əsassız iddiaları qətiyyətlə rədd edirik.

Ölkəsini "nadir güc" kimi qələmə verən nazir Manuel Valls səsləndirdiyi ziddiyyətli fikirlərin Fransanın dənizaşırı ərazilərində baş verən zorakılıq aktları, müstəqillik tələb edən xalqların hərəkatlarının boğulması faktları qarşısında nə qədər zəif arqumentlər olduğunu özü də etiraf edir. Nazir Manuel Vallsın fikirləri, Fransanın öz "strateji maraqları" müzakirə mövzusu olduqda fikir azadlığı, müstəqillik kimi anlayışları da qurban verməyə hazır olduğunu nümayiş etdirməsi, əslində, bu ölkənin ikili standartlar yanaşmasından xəbər verir. Fransa tərəfindən bu kimi iddialar səsləndirməklə ölkəmizə qarşı apardığı əsassız qarayaxma kampaniyasını dayandırmağı tələb edirik".



## Yelisey Sarayının saxta demokratiyası




Bu gün Fransa Azərbaycan kimi ölkələrə demokratiya dərsi keçməyə çalışır. Sual edirik: Yelisey Sarayının buna mənəvi haqqı çatırmı? Sualın cavabı birmənalıdır: Yox! Fransanın demokratiyası başdan-ayağa saxtadır. Amerika Birləşmiş Ştatlarının Milli Coğrafiya Cəmiyyətinin hesabatına görə, Fransa 200 il ərzində nəinki Afrika qitəsinin təbii sərvətlərini mənimsəyib, eləcə də qullarla məşğul olub. Fransa hərbçiləri Afrikada 1,4 milyon insanı qul kimi satıb. Cəmiyyət arxiv sənədlərinə istinadla bildirib ki, gəmilərlə Amerika və Avropaya daşınan qulların 15 faizi yolda acından ölüb. XIX əsrdə Fransa limanlarına "insan yükü" ilə dolu 1800 gəmi lövbər atıb. Bordo limanına 480 gəmi ilə 150 min, Qvard limanına 240 gəmi ilə 70 min, Nant limanına 256 gəmi ilə 166 min qul gətirilib. Fransa tərəfinin hazırladığı "Qara kodeks"də Afrikadan gətirilən qullar insan deyil, əşya kimi qeyd edilirdi. Kodeksdə "bir nəfər" deyil, "bir ədəd" qul yazılırdı.

Fransanın müstəmləkə ərazilərində törətdiyi ekoloji terror heç bir humanizm normasına sığmır. Afrikanın, dənizaşırı ərazilərin ekologiyası Yelisey Sarayının sümürmə siyasətindən ciddi şəkildə təsirlənib. 1960-1990-cı illərdə Fransa ordusu Əlcəzair və Polineziya ərazisində 210 dəfə nüvə bombası sınağı keçirib. Nəticədə vəhşi heyvanların populyasiyası 70 faiz azalıb ki, bu da təbiətə vurulan ən güclü zərbə olub. Aparılan nüvə sınaqlarının daha ciddi fəsadları isə insanların bir sıra sağalmaz xəstəliklərə düçar olmalarıdır.

Mədəni sərvətlərin oğurlanması Yelisey Sarayının bəşəriyyət qarşısında ən böyük günahlarından biridir. Həmin sərvətlərin bir çoxu bu gün Parisdəki Luvr muzeyində nümayiş olunur. Fransa tarixçiləri Benedikt Savua və Flavin Sarranın 2018-ci ildə hazırladıqları hesabata əsasən, Afrika xalqlarının milli mədəniyyət və incəsənət nümunələrinin 90 faizi Luvr və Branli muzeylərində saxlanılır. Bu tarixi abidələrin geri qaytarılması üçün hazırda Avstraliya, Qazaxıstan, Əlcəzair, Efiopiya, Nepal, Seneqal, Mali, Madaqaskar və digər dövlətlər Fransa qarşısında tələb qoyublar.




## Fransanın Cənubi Qafqazda pozuculuq əməlləri

Makron komandasının üzvlərinin Yelisey Sarayının daxili və xarici siyasətdə uğursuzluqlarına görə Azərbaycanı günahlandırması yalnız rəsmi Bakı tərəfindən etirazla qarşılanmır. Eyni zamanda, Fransa hakimiyyətinin subyektivliyi, ədalətsizliyi, Azərbaycana qərəzli münasibəti beynəlxalq səviyyədə ciddi qınaqla üzləşir. Tanınmış siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avrahamın qlobal yəhudi mediasının nəhəngi, ABŞ-da yayımlanan "Jewish Press"də dərc etdirdiyi "Fransa Azərbaycan və Ermənistan arasında" sərlövhəli məqaləsində ifadə olunan fikirlər buna misaldır.

Fransanın Cənubi Qafqazda, eləcə də Yaxın Şərqdə sabitliyi pozmağa yönələn siyasətinin təhlili aparılan yazıda qeyd olunub ki, kənar müdaxilə bölgədə sabitliyi pozan əsas amil kimi görünür. Buna baxmayaraq Qərb dövlətlərinin, xüsusən də Fransanın siyasəti regionun inkişafına mane olur.

Müəllif Azərbaycanı xarici təsirlərə boyun əyməyi qəbul etməyən və Ermənistanla sülh danışıqlarında üçüncü tərəfin iştirakına razı olmayan ölkə kimi səciyyələndirib. Diqqətə çatdırılıb ki, Azərbaycanla Ermənistan arasında gedən proseslərdə mərkəzi oyunçuya çevrilməyə cəhd göstərən Paris İkinci Qarabağ müharibəsindən sonra İrəvanın himayədarı rolunu öz üzərinə götürüb. Fransa uzun müddətdir ki, ardıcıl olaraq Ermənistanı dəstəkləyir və bu, mediada işıqlandırılan iddia deyil, artıq təsdiqlənmiş faktdır. Belə ki, Fransa həddindən artıq və yanlış tənqidlərə görə Azərbaycanla münasibətlərini itirmək riski ilə üz-üzədir.

Məqalədə Avropa İttifaqının Azərbaycanla əlverişli iqtisadi münasibətlərə baxmayaraq, açıq şəkildə Ermənistanın tərəfini tutmasına diqqət çəkilib. Xüsusilə Aİ-nin müşahidə missiyasının Ermənistanda qalma müddətinin daha iki il uzadılması ciddi narahatlıq doğurur. Vurğulandığı kimi, Bakı ehtiyat edir ki, Aİ-nin, o cümlədən də qurumun Ermənistandakı missiyasının iştirakı sülh prosesinə xələl gətirər və İrəvandakı sülhə qarşı çıxan revanşist qrupları dəstəkləyər.

Ermənistanla Azərbaycan arasında hərbi kampaniyanın başa çatdığına və iki ölkənin bir neçə məsələ istisna olmaqla, münaqişə ilə bağlı əksər məsələləri danışıqlar yolu ilə nizamladığına diqqət çəkən müəllif Parisin İrəvana verdiyi dəstəyi gərginliyi artırmaq, münaqişəni qızışdırmaq cəhdi kimi xarakterizə edib. "Aydındır ki, fransızlar öz siyasi və diplomatik məqsədləri üçün Cənubi Qafqazda münaqişənin saxlanmasında maraqlıdırlar", - deyə tanınmış jurnalist sonda vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Tolerantlığın Azərbaycan nümunəsi

## Ölkəmizdə bütün dinlərə və mədəniyyətlərə hörmətlə yanaşılır



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

Multikultural həyatı özünün yaşam tərzinə çevirmiş ölkəmizdə tolerant dəyərlər inkişaf etməkdədir. Azərbaycanda milli-dini müxtəliflik insanlar arasında fərq yaradan amil kimi deyil, birləşdirici funksiya daşıyır. Azərbaycanda bütün dinlərə məxsus tarixi-dini, eləcə də mədəni abidələrə qayğı və diqqətlə yanaşılır.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və milli-dini tolerantlığı özündə əks etdirən siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Əhalisinin böyük bir qisminin müsəlmanların təşkil etdiyi Azərbaycanda İslam mədəniyyətinə məxsus olan abidər, eləcə də maddi-mədəniyyət nümunələri ilə yanaşı, digər dinlərə məxsus abidələr də dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Ölkəmizdə bütün dinlərə məxsus insanlara və milli etnik fərqliliyi olan xalqlara bayramlarını, dini rituallarını keçirməsi üçün şərait yaradılır və bu istiqamətdə görülən tədbirlər ardıcıl xarakter daşıyır.

Mövzu ilə bağlı fikirlərini "Yeni Azərbaycan"la bölüşən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədovun sözlərinə görə, hazırda ölkəmizdə həyatın bütün sahələrində dərin, rasional və praqmatik islahatlar həyata keçirilir. Millət vəkili qeyd edib ki, ölkəmiz həm də sivilizasiyalararası münasibətlərin tənzimlənməsində mühüm rol oynayır: "Ölkəmizdəki multikultural cəmiyyətdən söz açarkən qeyd etmək vacibdir ki, bu məsələ heç də kənardan göründüyü qədər sadə bir məsələ deyil. Əslində, bu mühitin formalaşmasına əsrlərlə vaxt lazımdır və bu amil mürəkkəb çalarlara, dərin məzmun və fəlsəfi qatlara malikdir. Dözümlülük hər zaman müsbət amil kimi dəyərləndirilib. Eyni zamanda ölkəmizdə müşahidə olunan multikultural dəyərlərə hörmətin də əsasında daha çox bu nüans dayanır".

Deputat qeyd edib ki, ölkəmizdə dini tolerantlığın və millətlərarası münasibətlərin inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılır: "Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər və həyata keçirilən tədbirlər ölkəmizdə dini etiqad seçiminə hörmətlə yanaşıldığını, bu sahədə azadlığın və tolerantlığın qorunduğunu, yarana biləcək problemlərin beynəlxalq hüquq normalarına uyğun şəkildə həllinin təmin edildiyini göstərir. Respublikamızda fəaliyyət göstərən hər bir din icmaya sərbəst şəkildə, maneəsiz fəaliyyət göstərmək üçün şərait yaradılıb".

Ölkəmizdə yaşayan müxtəlif dinlərin nümayəndələrinə olan diqqət və qayğının Azərbaycan hökumətinin din siyasətinin prioritet istiqamətlərindən birini təşkil etdiyini söyləyən millət vəkilinin fikrincə, bu siyasət sayəsində dövlət dini icmalara xüsusi ehtiram ilə yanaşır, hər il dövlət büdcəsindən onlara yardımlar ayrılır, dini bayram və mərasimlər dövlət səviyyəsində qeyd edilir: "Məhz bu uğurlu siyasətin nəticəsidir ki, Azərbaycanda dövlət müstəqilliyindən əvvəl əgər 18 məscid mövcud idisə, hazırda ölkəmizdə 2250 məscid, 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Bugünədək Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində minə yaxın dini qurum dövlət qeydiyyatından keçib. 2014-cü ilin mayında Azərbaycanda dini dözümlülük ənənələrinin daha da möhkəmləndirilməsi, milli və dini azlıqlara dövlət qayğısının artırılması məqsədi ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Azərbaycan həqiqətlərinin və multikulturalizmin dünyada təbliğində sözügedən mərkəz müstəsna rola və əhəmiyyətə malikdir. Ümumiyyətlə, dini tolerantlıq ənənələrinin möhkəmləndirilməsində mədəniyyətlərarası dialoq və dinlərarası əməkdaşlıq xüsusi rol oynayır. Dinlərarası ədavət və münaqişələrin qarşısının alınmasında bütün cəmiyyət, dövlət və qeyri-dövlət qurumlarının üzərinə böyük vəzifələr düşür".

C.Məmmədovun sözlərinə görə, ölkə ərazisində yerləşən dini abidələrin qorunması, bərpası və yenidən tikilərək inanc sahiblərinin ixtiyarına verilməsi olduqca mühüm bir məsələdir. "Digər sahələrdə görülən işlər - dini təhsilin keyfiyyət və kəmiyyətcə artırılması istiqamətində verilən qərarlar, sərəncamlar, dövlətin bu sahədə atdığı addımlar, keçirdiyi tədbirlər və qəbul etdiyi qərarlar ardıcıllığı ilə yanaşı, həm də dərin fəlsəfi məzmuna malikdir. Azərbaycan dövləti dünyada sülh və əmin-amanlığı qorumaq, multikulturalizmi insanların həyat fəlsəfəsinə çevirmək üçün həm ölkədə, həm də respublikanın hüdudlarından kənarda möhtəşəm işlər aparır. Din sahəsi nəzəri fikir üçün daim həssas sahə olmuş və hazırda da belə qalmaqdadır. Bütün bu həssaslığı isə sözügedən sahənin daim dövlət himayəsinə və qayğısına, hətta nəzarətinə belə ehtiyac yaradır".

*Yeganə*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN



# Ramazan ayı: 12-ci günün duası

**“Allahummə zəyyinni fihi bis-sətri vəl-əfaf. Vəsturni fihi bilibasil-qünui vəl-kəfaf. Vəhmilni fihi ələl-ədli vəl-insaf. Və amilni fihi min kulli ma əxaf. Bi- ismətikə ya ismətəl-xaifin”.**

***Tərcüməsi:***

**“ilahi, bu gün günahlarımı gizlətmək və iffət bağışlamaqla məni zinətləndir. Bu gün mənə qənaət və kifayətcillik libasını geyindir. Məni bu gün ədalət və insafa vadar et. Bu gün məni bütün qorxduğum şeylərdən amanda saxla. İsmətinə and verirəm, ey qorxu içində olanların mühafizəçisi”**



# “Sağlığında qiymət verin insanlara”

## Cabir Novruzun anadan olmasından 92 il ötür...

*Yeganə BAYRAMOVA*

Bu gün yaradıcılığı ilə ədəbiyyatımızın yeni səhifələrini yazan, ləyaqətli bir ömrün sahibi, Xalq şairi Cabir Novruzun doğum günüdür. Şairin anadan olmasından 92 il ötür.

Ədəbiyyatımızın unudulmaz nümayəndəsi Cabir Novruzun məşhur bir misrası var: “Sağlığında qiymət verin insanlara”. Əslində qürur duyur, təskinlik tapırıq ki, Cabir Novruz məhz öz sağlığında istər oxucuları, istərsə də dövlətimiz tərəfindən layiqli qiymətini alıb, həmişə qədirli və qiymətli olub. Xalq şairi kimi yüksək fəxri ada layiq görülmüş görkəmli söz sərrafımız Cabir Novruz Ulu Öndər Heydər Əliyev tərəfindən Prezidentin fəxri təqaüdünə layiq görülmüşdü.

Şair 1933-cü il mart ayının 12-də Xızı rayonunun Upa kəndində anadan olub. O, orta məktəbi bitirdikdən sonra Mirzə Ələkbər Sabir adına Pedaqoji Texnikumda təhsil alıb və 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub. Bir il sonra Azərbaycan Yazıçılar İttifaqının tövsiyəsi ilə təhsilini davam etdirmək üçün Moskvaya, Maksim Qorki adına Ədəbiyyat İnstitutuna göndərilib və 1957-ci ildə oranı bitirib.

1958-ci ildə “Bakı” axşam qəzetinin ədəbiyyat şöbəsində ədəbi işçi kimi əmək fəaliyyətinə başlayan Cabir Novruz 1967-1970-ci illərdə “Ulduz”, 1984-1987-ci illərdə “Azərbaycan” ədəbi-bədii jurnallarının, 1991-1993-cü illərdə isə “Ədəbiyyat və incəsənət” qəzetinin baş redaktoru vəzifələrində çalışmışdı. O, 1970-1997-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin katibi olub.

Cabir Novruzun poeziyası 20-ci əsr Azərbaycan ədəbiyyatının parlaq səhifələrindən birini təşkil edir. Onun əsərlərində milli irsimizin zəngin ənənələri müasir ədəbi cərəyanların tələbləri ilə üzvü şəkildə birləşir. Ədəbiyyat aləminə gəldiyi ilk illərdən şair yüksək bəşəri-mənəvi dəyərləri tərənnüm edən şerləri ilə oxucuların dərin məhəbbətini qazanıb. Onun qələmindən çıxan lirik poeziya nümunələri və epik lövhəli əsərlər bədii səviyyəsi, mövzu rəngarəngliyi ilə seçilir. Şairin yüksək mənəviyyata səsləyən yaradıcılığı və vətəndaş ruhunun hakim olduğu poeziyası öz dilinin bədii gözəlliyi və rəvanlığı ilə səciyyələnir. Onun sözlərinə bəstələnmiş çoxsaylı mahnılar musiqisevərlər tərəfindən həmişə böyük rəğbət və sevinclə qarşılanıb.

Cabir Novruzun yaradıcılığı vətənpərvərlik və mübarizlik ruhunun aşılanmasında mühüm xidmətlər göstərib. Vətənin taleyi üçün narahatlıq hissinin xas olduğu Cabir Novruz poeziyasının başlıca mövzuları azərbaycançılıq ideyaları ilə sıx bağlı olub. Şairin poetik təfəkkürü onun lirikasının tarixiliyini qüvvətləndirib və bu poeziyanı daha həyati edib.

Şairin əsərləri dünyanın müxtəlif xalqlarının dillərinə tərcümə edilərək nəşr olunub. Onun bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya poeziyasının bir sıra qiymətli nümunələri ilə tanış olmaq imkanı qazanmışdı.

Cabir Novruzun ictimai fəaliyyəti də zəngin olub. O, həyatının bütün mərhələlərində ölkəmizdə gedən ictimai-siyasi proseslərin həmişə fəal iştirakçısı olub, xalqımızın həyatında baş verən taleyüklü hadisələrə düzgün qiymət verilməsində əsl vətəndaşlıq mövqeyi nümayiş etdirib.

Şairin ədəbi və ictimai fəaliyyəti yüksək qiymətləndirilib. O, “Əməkdar incəsənət xadimi”, “Xalq şairi” fəxri adlarına, dövlət mükafatına, orden və medallara layiq görülüb. Cabir Novruz Azərbaycan Milli Məclisinin deputatı olub.

Görkəmli şair, həqiqi vətəndaş və səmimi insan Cabir Novruzun əziz xatirəsi xalqımızın qəlbində daim yaşayır...

# Sabitliyimizin təminatçıları...

*Yeganə BAYRAMOVA*

Azərbaycanın qazandığı nailiyyətlərin miqyası davamlı şəkildə genişlənir, hər il yeni uğurlara imza atılır. Təbii ki, bütün bu uğurların və iqtisadi yüksəlişin qazanılmasında ölkədə möhkəm sabitlik və təhlükəsizliyin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Mövcud geosiyasi proseslər bir daha təsdiqləyir ki, sabitliyə əsaslanmayan inkişafın yaşanması praktiki olaraq mümkün deyil.

Bu gün Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasından 33 il ötür. 1991-ci ilin dekabrında SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakıda yerləşən 5-ci diviziyası buraxılıb. Bununla da heyəti 2500 nəfərdən ibarət olan üç hərbi hissə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyinə verilib. Həmin vaxtdan Azərbaycan Daxili Qoşunlarının Biləcəri qəsəbəsindəki hərbi hissənin əsasında yaradılmasına başlanıb.

**Daxili Qoşunların ilk şəhidləri...**

Daxili Qoşunların Azərbaycan Daxili İşlər Nazirliyinin müstəqil strukturu kimi yaranması və formalaşması ölkəmizin çox çətin bir dövrünə təsadüf edib. 1992-ci il martın 12-də Daxili Qoşunların Biləcəri, Sumqayıt, Gəncə hərbi hissələri erməni işğalçılarına qarşı döyüşlərə başlayıb. Azərbaycanın ərazi bütövlüyü uğrunda Ağdam rayonunun Papravənd, Qalaycılar, Manikli, Baş Güneypəyə, Canyataq, Gülyataq kəndlərində vuruşublar. Döyüşlərdə çavuş Hətəmxan Babayev, leytenant Rafiq İsmayılov, baş leytenant Ruber Səfərəliyev Daxili Qoşunların ilk şəhidləri olublar. Həmin döyüş günü rəmzi olaraq Daxili Qoşunlar Günü kimi müəyyənləşdirilib.

**Birinci Qarabağ müharibəsində qəhrəmanlıq nümunələri**

Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə - Birinci Qarabağ müharibəsində Daxili Qoşunların döyüşçüləri də qəhrəmanlıq nümunələri göstərib, şəhidlər veriblər. Döyüş əməliyyatları aparılan müddətdə qoşunların şəxsi heyətindən 680 nəfər şəhid olub, 1177 nəfər yaralanıb, 5 nəfər itkin düşüb. Birinci Qarabağ müharibəsində Daxili Qoşunların 9 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı (8-i ölümündən sonra) fəxri adına layiq görülüb.

Daxili Qoşunların formalaşmasında Ümummilli Liderin misilsiz tarixi xidmətləri olub. Belə ki, 1995-ci il martın 9-da Heydər Əliyevin imzaladığı müvafiq fərmanla Azərbaycan Daxili Qoşunlarının şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyü uğrunda və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşə başladığı ilk gün - martın 12-si Daxili Qoşunlar Günü elan olunub.

Daxili işlər orqanlarının ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunlar ötən illərdə şərəfli yol keçib, ciddi sınaq və çətinliklərdən çıxaraq inkişaf edib. Prezident İlham Əliyev Daxili Qoşunların təkmilləşdirilməsi, peşəkar hazırlığının yüksəldilməsi üçün daim diqqət və qayğı göstərir. Məhz bu diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycanın Daxili Qoşunları döyüş hazırlığına və maddi-texniki bazasına görə MDB məkanında ön sıradadır.



## Daxili Qoşunlar Günüdür

Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, şəxsi heyət həmişə xalqın əmin-amanlığının, ölkədaxili sabitliyin sadiq keşikçisi olaraq, respublikamızın ərazi bütövlüyünün bərpasında layiqincə iştirak edib. Bu, onların cəmiyyətdə nüfuzunu artırır və vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılanır.

**66 hərbçi şəhidlik zirvəsinə ucalıb**

Vətən müharibəsində Daxili Qoşunların hərbçiləri misilsiz qəhrəmanlıq nümunələri göstəriblər. 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən 44 günlük müharibə zamanı Daxili Qoşunların hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində şanlı Zəfərin qazanılmasına mühüm töhfələrini veriblər. Torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə Daxili Qoşunların 66 hərbçisi şəhidlik zirvəsinə ucalıb, 346 nəfər isə yaralanıb. Daxili Qoşunların 4 əməkdaşı ən yüksək fəxri ada - Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

*İdman*

# Millimiz dördüncü dəfə Avropa çempionu olub

Albaniyanın paytaxtı Tiranada keçirilən U-23 Avropa çempionatında sərbəst güləş yarışına yekun vurulub. Millimiz rekord göstəricilərlə ardıcıl 4-cü dəfə komanda hesabında Avropa çempionu olub. İlk dəfə 2022-ci ildə U-23 Avropa çempionatında titula sahib çıxan sərbəst güləşçilərimiz artıq 4 ildir ki, baş mükafatı özündə saxlayırlar. Budəfəki uğur rekord göstəricilərlə əlamətdar olub. Millimiz həm topladığı xala, həm medalların, həm də finalların sayına görə öz rekordunu yeniləyib.



Yığmamız ilk dəfə bu yarışda 10 çəkidən 9-da medal qazanıb. İlk dəfə 5 sərbəst güləşçimiz qitə birinciliyinin finalında güləşib. Komandamız yekun sıralamada 169 xalla toplamaqla özünün yeni xal rekordunu müəyyənləşdirib. Millimiz ən yaxın izləyicisi olan Türkiyəni 52 xal qabaqlayıb. Ukrayna 104 xalla üçüncü yeri tutub.

Xatırladaq ki, millinin tərkibində Arseniy Djioyev (86 kiloqram) qızıl, Ceyhun Allahverdiyev (61 kiloqram), Kənan Heybətov (70 kiloqram), Ağanəzər Novruzov (74 kiloqram) və Fərid Cabbarov (79 kiloqram) gümüş, Rəhman İmanov (57 kiloqram), Murad Haqverdiyev (65 kiloqram), Sadiq Mustafazadə (92 kiloqram) və Yusif Dursunov (125 kiloqram) isə bürünc medal qazanıb.

# Boksçumuz dünya çempionatına qələbə ilə başlayıb

Azərbaycan millisinin daha bir boksçusu Serbiyanın Niş şəhərində qadınlar arasında keçirilən dünya çempionatına qələbə ilə başlayıb. Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Aynur Mikayılova (57 kiloqram) 1/16 finalda Xurşid Mohammadini (Əfqanıstan) mübarizədən kənarlaşdırıb.



Boksçumuz döyüşün taleyini ilk raundda həll edib. O, rəqibinə tam üstünlüklə qalib gəlib. Mikayılova 1/8 finalda ilk mərhələdən azad olan Esra Yıldız Kahramanla (Türkiyə) üz-üzə gələcək. Görüş martın 12-də olacaq. Qeyd edək ki, mundialın üçüncü günündə Azərbaycan millisinin 2 boksçusu rinqə çıxacaq.

# “Qızlar Futzal Kuboku” keçiriləcək

AFFA-nın təşkilatçılığı ilə 15-16 mart tarixlərində Lənkəranda 14 yaşadək qız şagirdlər arasında “Qızlar Futzal Kuboku” layihəsi keçiriləcək. Apasport.az xəbər verir ki, Lənkəran Olimpiya İdman Kompleksində təşkil olunacaq turnirin ilk günündə 8 məktəbin iştirakı ilə qrup oyunları, növbəti gün isə pley-off mərhələsinin qarşılaşmaları baş tutacaq. İştirakçı komandalar idman geyimi, top və gödəkçələrlə təmin olunacaq. Tədbirin son günü qaliblər diplom, medallar və müxtəlif nominasiyalar üzrə mükafatlandırılacaq.




Qeyd edək ki, UEFA-nın dəstəyi ilə təşkil ediləcək “Qızlar Futzal Kuboku”nun ümumilikdə 4 regionda keçirilməsi planlaşdırılır. Layihənin əsas məqsədi orta məktəb şagirdləri arasında sağlam həyat tərzinin düzgün şəkildə təbliği, futbola marağın artırılması, kütləviliyin təmin olunması, həmçinin gələcəkdə AFFA U-15 Qızlar Liqasına və milli komandalara futbolçuların hazırlanmasıdır.

# “Kəpəz”in futbolçusu Tacikistan yığmasına dəvət alıb



“Kəpəz”in futbolçusu Şervoni Mabatşoev milliyə çağırılıb. Klubdan AZƏRTAC-a verilən məlumata görə, yarımmüdafiəçi qarşıdakı iki oyun üçün Tacikistan yığmasına dəvət alıb. Tacikistan komandası martın 20-də Belarusla yoxlama matçı keçirəcək. Bundan 5 gün sonra isə Asiya Kubokunun seçmə oyunları çərçivəsində Timor-Leste ilə qarşılaşacaq. Hər iki görüş Düşənbədə keçiriləcək.

# Ulduz futbolçunun diskvalifikasiya müddəti başa çatıb

Antidopinq qaydalarını pozduğu üçün futboldan uzaqlaşdırılan Fransa millisinin yarımmüdafiəçisi Pol Poqbanın diskvalifikasiya müddəti başa çatıb.

31 yaşlı futbolçu artıq karyerasını istənilən klubda davam etdirə bilər. İddiaya görə, oyunçunun xidmətində ölkəsinin “Marsel” və ABŞ-ın “İnter Mayami” kollektivləri maraqlıdır. Onun son komandası İtaliya təmsilçisi “Yuventus” olub. Poqbanın əsas məqsədinin Fransa millisinin heyətində 2026-cı il dünya çempionatında iştirak etmək olduğu bildirilib. Buna görə də futbolçu növbəti mövsümə mümkün qədər yaxşı hazırlaşmaq istəyir.



Qeyd edək ki, İtaliya Milli Antidopinq Tribunalı (NADO Italia) Pol Poqbanı qadağan olunmuş maddələrdən istifadə etdiyinə görə 4 il müddətində futboldan diskvalifikasiya etmişdi. Amma daha sonra futbolçunun cəzası yüngülləşdirilmişdi.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4882
Sifariş: 558
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova